AXUNDOV NAMİQ ATALLA OĞLU

MƏNALI ÖMRÜN 80 İLİ

BAKI 2020

Müəllifi: **f.e.d., Ziyəddin Məhərrəmov**

Redaktoru: **f.f.d., dos. F.Abdurəhmanova**

Rəyçi: **prof. A. Bayramov**

Elmi redaktoru və kitabın dizayn tərtibçisi: yazıçı-tənqidçi, Azərbaycan Yazıçılar Birliyinin üzvü, Prezident təqayüdçüsü, filologiya üzrə fəlsərə doktoru, dosent, Fidan Nizamməddin qızı Abdurəhmanova.

MƏHƏRRƏMOV ZİYƏDDİN

"MƏNALI ÖMRÜN 80 İLİ"

Bu kitab Azərbaycan cəmiyyətində tanınmış görkəmli alim, pedaqoq, tarix elmləri doktoru, professor, ictimai xadim Axundov Namiq Atalla oğluna həsr olunub və onun ərsəyə gəlməsi tarixçi müəllim, beynəlxalq siyasət sahəsində hamının sevdiyi vətəndaş kimi həmvətənliləri qarşısında sadə, insanlıq borcunu yerinə yetirməyi əzəli vəzifəsi sayan, xeyirxah əməllərinin və nümunə ola biləcək ömür yolunu açıqlamaq və gənc nəsilə çatdırmaq ehtiyacından doğmuşdur. Namiq müəllimə ithaf olunan bu kitabda elmə hörmət və maraq, müəllimə ehtiram və vətən sevgisinə sədaqət aşılanır.

© Z.Məhərrəmov, 2020

MÜƏLLİFDƏN

Dahilərin, alimlərin, müəllimlərin, böyük zəka sahiblərinin cismani, adi qısa insan ömrü yaşamalarına baxmayaraq, onlar uzunömürlü sayılmalıdırlar. Onların ideyaları, elmi kəşfləri, təcrübi tövsiyələri və perspektiv planları sadiq tələbələri və əməkdaşları tərəfindən həyata keçirilirsə, elm və təcrübəni zənginləşdirirsə, deməli özləri də yaşayırlar. Əsl alim və müəllimlərin ömür yolu nümunə olur və bəzən əsrlərlə unudulmur.

Bu kitabda söhbət açılan insan professor Namiq Atalla oğlu Axundov sadaladığım insanlardandır. Müəlliminə sadiq tələbələrdən və tələbələrinə qayğıkeş və tələbkar müəllimlərdəndir. Bu kitabın yazılması tərif üçün deyil, böyük alim, müəllim, Heydər Əliyev məktəbinin layiqli, mübariz davamçısı olan, dost qarşısında sadəcə insani borcu yerinə yetirmək, onun xeyirxah əməllərini və nümunə ola biləcək ömür yolunu açıqlamaq, müstəqillik illərinin gənc nəslinə çatdırmaq ehtiyacıdır.

Məncə, böyük müəllimlərə, alimlərə, filosoflara, şairlərə, sənətkarlara, ictimai xadimlərə hörmət, onlara sağlığında verilən qiymət, göstərilən qayğı daha düzgün, daha vacib, daha ibrətamizdir, nəinki dünyalarını dəyişdikdən sonra ucaldılan cansız heykəllər, söylənilən təmtəraqlı sözlər. İnsanın öz sağlığında zəhmətinə qiymət verilməsinin şahidi olmaq səadətdir.

Professor Namiq Axundovun 80 illik yubileyi ərəfəsində bu kitabçanı yazmaqda əsas məqsəd müəllimi və silahdaşı olmuş Ulu Öndər Heydər Əliyevin ictimai və siyasi fəaliyyətinin davamçısı olan, gənc nəsil üçün örnək şəxsiyyətlərdən olan professor Namiq Axundov və onun təkrarsız həyat yolunda qarşıya qoyduğu

vəzifələrin müstəqilliyimizin qorunub saxlanması sahəsində görülən işlərin aparıcı qüvvəsinə çevrilməsini özünün müqəddəs borcu saymağından, zəhmətini gənclərdən əsirgəmədiyindən, onlara düzgün istiqamət verməsindən, millət qarşısında heç zaman borcunu unutmamaq hissi ilə yaşayıb yaratmasıdan, qədrbilən gənclərin minnətdarlıqla qayğıkeş müəllimliyindən söz açmaqdır.

Bu kitabın səhifələrində fikirləri alınan şəxslərin, etibarlı dost və sirdaşların Namik müəllim haqqında deyilən ifadələrində örnək olan cəhətlər, oxucuda, gənclərdə elmə, vətənsevərliyə, idarəçiliyə, dövlətçiliyə hörmət və maraq, rəhbərinə və hami – tərbiyəçisinə ehtiram, dosta və dostluğa sadiqlik hissini az da olsa canlandırsa gördüyüm işdən məmnun olaram..

Ziyəddin Məhərrəmov

Filologiya üzrə elmlər doktoru

UŞAQLIQ VƏ GƏNCLİK İLLƏRİ

Namiq Axundov 1940-cı il aprel ayının 7-də al günəşli bir bahar günündə Vətənimizin dilbər güşəsi olan Lənkəran şəhərində qulluqçu ailəsində dünyaya göz açmışdır. Uşaqlığı və gəncliyi tarixi İçərişəhərdə keçən Namiq müəllim orta məktəbi Bakıda bitirmişdir.

Ali təhsilini 1960-cı ildə o vaxtkı M.Əzizbəyov adına Azərbaycan Neft və Sənaye İnstitutunun "Kimya-texnologiyası" fakültəsində davam etdirmiş, oranı bitirərək kimya-texnoloqu mühəndisi ixtisasına yiyələnmişdir.

1976-1978-ci illərdə SSRİ-nin 50 illiyi adına Xarici Dillər İnstitutunda alman dili, 1983-1986-cı illərdə Sovet İttifaqı Kommunist Partiyası, Mərkəzi Komitəsinin nəzdində İctimai Elmlər Akademiyasında tarixçi ixtisasına yiyələnmişdir.

Əmək fəaliyyətinə Bakı Elektron maşınqayırma zavodunda çilingər kimi başlamışdır. Bakı Neftayırma zavodunda operator köməkçisi işləmiş, Azərbaycan komsomolunun Mərkəzi Komitəsində sektor müdiri, Azərbaycan Gənclər Təşkilatı Komitəsində sədr müavini, daha sonra sədr vəzifəsində çalışmışdır.

1964-1982-ci illərdə Azərbaycan KP MK Beynəlxalq əlaqələr şöbəsinin referenti, baş referent, 1982-1984-cü illərdə AKP MK Beynəlxalq əlaqələr şöbəsinin şöbə müdirinin müavini, 1984-1991-ci illərdə müdiri vəzifəsində çalışmışdır. Namiq müəllim yenicə müstəqillik qazanmış Azərbaycan Respublikasının Milli Məclisinin Beynəlxalq əlaqələr şöbəsinin müdiri vəzifəsində çalışmağa başlayır və 1997-ci ilə qədər bu vəzifədə Respublikamız üçün əvəzolunmaz xidmətlər göstərmişdir.

1997-ci ildən bu günədək sadiq olduğu Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında (DİA) çalışmaqdadır. Müxtəlif illərdə dosent, professor, 2004-cü ildən isə DİA-nın magistratura üzrə dekan vəzifəsində çalışmışdır.

Hal-hazırda DİA-nın rektorun müşaviri kimi fəaliyyətini davam etdirir.

Namiq Axundov dünyanın bir çox ölkələrində: ABŞ, Meksika, Kanada, Çin, Yaponiya, Cənubi Koreya, Hindistan, Pakistan, Əfqanıstan, İordaniya, Küveyt, İran,

İraq, İsrail, Fələstin, Türkiyə kimi ölkələrdə dövlət səviyyəli tədbirlərdə iştirak etmiş, həmin ölkələrdə "Azərbaycan günləri"nin təşkilatçısı olmuş, Neapol (İtaliya), Lyudviqsxafen (AFR), Maynu şəhərinin (AFR), Yeni Orlean (ABŞ), Botenruj (ABŞ), Hyuston (ABŞ), Lyudviqsxafen (AFR) şəhərlərinin fəxri vətəndaşı seçilmişdir.

1985-1990-cı illərdə Azərbaycan SSR-i Ali Sovetinin deputatı, 1990-1995-ci illərdə Azərbaycan Respublikasının Milli Məclisinin deputatı seçilmiş, xarici işlər üzrə komitə sədri vəzifəsində çalışmışdır.

Namiq Axundov xidmətlərinə görə "Xalqlar dostluğu" ordeni, "Şərəfli əmək" medalı, AzSSR Ali Soveti Rəyasət heyətinin fəxri fərmanları və bunlarla yanaşı bir sıra medallar və təşəkkürnamələrlə təltif olunmuşdur.

TƏLƏBƏLİKDƏN ALİMLİYƏ GEDƏN YOL

Əmək fəaliyyətinə Bakı Elektron maşınqayırma zavodunda çilingər kimi başlayan Namiq Axundov o vaxt çox gənc idi. Həyata yenicə kövrək qədəmlər qoyan bu gənc zamanın mürəkkəb proseslərindən baş çıxarmağa, həyatda düzgün yol tutmağa, öyrənəndən öyrədənə çevrilməyə, var gücü ilə gördüyü işin öhdəsindən gəlməyə çalışırdı. Onun işlədiyi zavoddakı bütün işçilərilə münasibəti, davranışı, mehribanlığı, ədaləti və prinsipial olmağı onu addım-addım, pillə-pillə ucalmağa, irəlidə olmağa, daha məsuliyyətli, daha mürəkkəb bir işin öhdəsindən gəlməyə qadir olduğunu sübut etdi.

Böyük həyat eşqi olan bu insanın verilən tapşırıqların öhdəsindən lazımınca gəlmək bacarığı onu kiçik amma doğru addımlarla ən ali məqsədinə, hədəfinə doğru aparırdı.

Deyirlər ki, bütün uğurlara gedən yol hər kəsə qəbul elətdirə biləcəyi ideyadan, düzgün seçilmiş strategiyadan başlayır. Əqidəsi düz, sözü kəsərli, yaşamaq-yaratmaq həvəsi olan bir insan hər zaman ucalığa, zirvəyə doğru addımlayır. Bu yolda hansı çətinliklərin, eniş-yoxuşların olmasının fərqinə varmadan işinin ustasına çevrilmək hər insana nəsib olmur. Mən deyərdim ki, bu da bir tale, alın yazısından çox əzmkarlığın bəhrəsidir.

Öz bacarığı, əməksevərliyi sayəsində mürəkkəbi sadəyə, çətini asana çevrilən, həyat tənliyinin həllini özü tapan Namiq Axundov daha sonra Bakı Neftayırma zavodunda operator köməkçisi işləyir. Burada da həmin tələbkarlıq, çalışqanlıqla işinin ustasına çevrilir. İdarəetmə, idarəçilik bacarıqlarının mükəmməl formalaşması onu tanıyanların nəzərindən qaçmır. Yüksək peşəkarlıq tələb olunan vəzifələrdə Namiq Axundov kimi gənclərə ehtiyacın olması onun respublika komsomolunun Mərkəzinə sektor müdiri vəzifəsinə təyin edilməsi, Azərbaycan Gənclər Təşkilatı Komitəsində sədr müavini, daha sonra sədr vəzifəsində çalışmasına səbəb oldu və bu onun qısa zaman ərzində işgüzarlıq qabiliyyətinin, idarəetmə bacarığının formlaşmasından xəbər verir.

Namiq Axundov əmək fəaliyyəti ilə məşğul olmaqla bərabər, həm də daima elmi axtarışda olmuş, dosent, professor kimi fəxri adların necə alınmasının, sözün əsl mənasında, uzun sürən axtarış, araşdırma kimi çətin yolu keçərək bu səviyyəyə gəlib çatmışdır. Öz zəhməti, bacarığı, yuxusuz gecələri hesabına yazılan hər kəlmə, hər sətir onun həyat kitabının ən şərəfli səhifəsidir.

İşə məsuliyyətlə yanaşmaq insanın öz sənətini, peşəsini sevməyin bir nümunəsidir. Çalışdığı vəzifədə, gördüyü hər bir işə vətəndaş münasibətilə, vicdanla yanaşmaq, ona göstərilən etibarın, etimadın icraçısı olmaq bacarığı hər uğurda Namiq Axundova yeni güc, yeni stimul verir. O dövrlərdə Azərbaycan Ali Sovetinin deputatı seçilməsi onun xalqa olan məhəbbətinin, qayğısının, vətəndaş təəssübkeşliyinin bir sübutu idi. Xalqın, dövlətin, ayrı-ayrılıqda hər bir vətəndaşın mənafeyini müdafiə etmək, vətəni təmsil edə bilmək bacarığı onun xarici ölkələrdə - Avropa ölkələri, ABŞ, Meksika, Kanada, Çin, Yaponiya, Cənubi Koreya, İslam ölkələri, İsrail, Fələstin, Türkiyə kimi ölkələrdə dövlət səviyyəli tədbirləri təşkil etmək və orada aktiv iştirak edərək öz ölkəsini təmsil etməsi Namiq müəllimin Azərbaycan üçün, doğma xalqı üçün böyük və əvəzedilməz xidmətlərinin olmasından xəbər verir.

Dövləti təmsil edən məsul bir şəxs olması ilə yanaşı həm də elmi axtarışda olaraq, tariximizin, soy kökümüzün illərə, qərinələrə söykənən yaddaşını vərəq-vərəq araşdırmış, açılmamış sirləri, deyilməmiş həqiqətləri üzə çıxarmış, yazılmış

tariximizin bəzi müəmmalı məqamlarına aydınlıq gətirmişdir. Dissertasiya işini Moskvada müdafiə edərək tarix elmləri doktoru, professor adına layiq görülmüşdür.

Deyirlər ki, elmin vətəni yoxdur, amma alimin vətəni var. O, vətəni – Azərbaycanı, ana dilini sevən və hörmətlə yanaşan, ona dəyər verən bir şəxsdir. Namiq müəllim ana dilini mükəmməl bilmək və danışmağa böyük önəm vermişdir. Çıxışlarında bir tarixçi kimi, bir xalqın dilinin onun tarixi ilə sıx bağlılığını dönə-dönə vurğulayır, ana dilinin mənəvi dəyərlərin formalaşmasında rol oynadığını, öz dilində düşünüb danışmağın nə qədər önəmli və əhəmiyyətli olduğunu qeyd edir, ana dilində təhsil almağın dövlətimizə, dövlətçiliyimizə gətirəcəyi uğurun ən başlıca amil olduğunu söyləyir.

Alim dörd dərs vəsaitinin və ondan artıq ellmi məqalənin müəllifidir.

Urxan Kazım oğlu Ələkbərov

Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademisasının Rektoru, Akademik

GÖRKƏMLİ ALİM VƏ İSTEDADLI İDARƏÇİ

80 illik yubileyini qeyd edən Namiq Atalla oğlu Axundovu dərin biliyə malik alim, rəhbərlik istedadına və yüksək insani keyfiyyətlərə malik şəxsiyyət kimi səciyyələndirmək olar. Çalışdığı istənilən sahədə böyük hörmət-izzət sahibi olan, yüksək mənəviyyatlı insan, dəyərli alim və ictimai xadim N.Axundov müxtəlif illərdə Bakı Elektron Maşınqayırma zavodunda çilingər köməkçisindən Azərbaycan Kommunist Partıyası Mərkəzi Komitəsinin Beynəlxalq əlaqələr şöbəsinin müdiri, müstəqillik illərində isə Milli Məclisin Beynəlxalq əlaqələr şöbəsinin müdiri və Azərbaycan Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının professoru vəzifələrinədək yüksəlmişdir və peşəkarlığı, işgüzarlığı, səriştəliliyi, vətənpərvərliliyi ilə diqqəti çəkimşdir. Professor Namik Axundov istər sovet imperiyasının tərkibində, istər ulu öndər Heydər Əliyevin rəhbərliyi altında müstəqil Azərbaycanın istisadi-sosial və elmi-mədəni inkişafı, xalqımızın milli varlığının qoruyub saxlanması üçün

həm qeyrətli vətəndaş, həm erudisiyalı alim, həm də müxtəlif məsul vəzifələr daşımış rəhbər işçi, eləcə də bacarıqlı pedaqoq kimi əlindən gələni əsirgəməmişdi. Şübhəsiz, vətəndaş alim və təəsübkeş ictimai xadim Azərbaycan dövlət müstəqilliyi qazanmasından sonra bir müddət artıq müstəqil ölkənin Milli Məclisinin deputatı kimi də fəaliyyət göstərmişdir və xidmətlərinə görə layiq görüldüyü "Xalqlar dostluğu" ordeni, "Şərəfli əmək" medalı mənalı və ləyaqətli bir ömür yaşamış bu insanın aldığı çoxsaylı mükafatlar içərisində ən qiymətliləridir.

Namiq Axundovu uzun illərdir tanıyıram və onu sadə və nəcib insan, ziyalı və ləyaqətli vətəndaş, gözəl alim kimi dəyərləndrə bilərəm. Xarakter etibarilə ciddi, tələbkar, prisipial, qayğıkeş insan olan Namiq müəllimin obyektliyi və qərəzsizliyi də bir-birini tamamlayır. O, cəmiyyətdə, çalışdığı mühitdə örnək sayılası şəxslərdəndir, düşünən alimdir. Əslində, N.Axundovun düşüncələri, hadisələrə özünəməxsus baxışı, tələbkarlığı və bir o qədərdə qayğıkeşliyi onun ziyalı portretinin ayrılmaz cizgiləridir. Azərbaycan tarix elminin seçilən nümayəndəsi, həm də istedadlı alim və ziyalı, Azərbaycan xalqının zəngin milli-mənəvi dəyərlərindən ilham alan Namiq müəllim məzmunlu və çoxşaxəli həyatı boyu azərbaycanlı adını qürur və iftixarla daşımış və Azərbaycana sədaqətlə borcunu yerinə yetirmişdir. O, eyni zamanda, bir beynəlmiləlçi və humanist insan kimi, ümumbəşəri ideyalara da etinasız qalmamışdır. Sadə xalqın içindən çıxmış, yaxşı təhsil görmüş, gənclik illərindən fəal ictimai həyata qoşulmuş Namiq müəllim uzun və mənalı bir ömür yaşamış, harada çalışmasından asılı olmayaraq xalq işinə vicdanla, peşəkarlıqla xidmət göstərmişdir.

Namiq Axundov bu gün də çalışmaqda və ölkənin ictimai, elmi həyatında fəsal iştirak etməkdədir. Dünən olduğu kimi, bu gün də onun çoxillik elmi, pedaqoji, ictimai fəaliyyəti, məhsuldar əməyi yüksək qiymətləndirilir.

Akademik Urxan Ələkbərov professor Namiq Axundovu təltif edir.

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının professoru, tarix elmləri doktoru, Azərbaycan Yazıçılar Birliyinin üzvü, "Qızıl Qələm" mükafatı laureatı,

Musa Quluzadə

ŞƏRƏFLİ HƏYAT YOLU

Hər gün Füzuli prospektindəki binaların birindən kübar çöhrəli bir şəxs çıxaraq iş yerinə - Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasına gəlir. Akademiyanın qapısından girməzdən əvvəl qarşıdakı möhtəşəm binaya doğma bir nəzərlə baxır. O, bu binadakı mərtəbələri, otaqları bir anlıq xatirə süzgəcindən keçirir. Axı ömrünün böyük bir hissəsi bu binadakı otaqlarda keçib. Gəncliyi bu binanın sadə bir otağından başlamış, sonra vəzifə dəyişdikcə otaqlar da dəyişib...

Hər bir şəxs həyatının hər hansı pilləsində dönüb arxaya - keçib gəldiyi ömür yoluna baxanda xoş xatirəyə dönmüş anları, günləri görürsə və bu anlar, günlər xalqa, Vətənə xidmətdirsə, bundan şərəfli, mənalı həyat ola bilməz.

"Xalq üçün, vətən üçün yaşanan ömür əsl insan ömrüdür". Belə insanlar həyatları boyu cəmiyyətdə, insanlar arasında alnıaçıq, başı uca olurlar. Ona görə ki, belə insan öz ömrünü - öz həyatını xalq yolunda şama döndərir. Öz xoşbəxtliyini, səadətini, varlığını vətənə xidmətdə görür. Həm də bu xidmət saf, təmiz, ləyaqətli ola.

Belə insanları cəmiyyət şəxsiyyət kimi qəbul edir, onların sözünə, fikirlərinə hörmətlə yanaşır. Onlar millətin genofondudur, mənəvi xəzinəsidir. Dediyimiz insanlardan biri də görkəmli ictimai-siyasi xadim, tarix elmləri doktoru, professor Namiq Axundovdur. Namiq Atalla oğlu Axundov 1940-cı il aprelin 7-də Azərbaycanın dilbər güşələrindən biri olan Lənkəran şəhərində anadan olmuşdur. Ancaq ailəsi Bakıya köçdüyünə görə onun uşaqlığı da Bakıda, İçərişəhərdə keçmişdir. 1957-ci ildə orta məktəbi bitirib. Çoxları orta məktəbi qurtarıb ali məktəbə gedir, gənc Namiq isə ailəyə kömək etmək üçün zavodda işə girir. Ali təhsili olmasa da yüksək savadı, yorulmaz işguzarlığı vardı. Tezliklə kollektivin hörmətini qazanır. İclaslarda onun ağıllı, uzaqgörən çıxışları həmişə hörmətlə qarşılanır. Çox keçmir gənc Namiqin adı o zaman çox hörmətli gənclər təşkilatı olan komsomol sıralarında çəkilir. Namiq Axundov birbaşa Azərbaycan LKGİ MK-ya təlimatçı təyin edilir. 1966-cı ilə kimi Namiq bu vəzifədə çalışır. Onun işgüzarlığı burada da öz sözünü deyir. Cəsarətli çıxışları, milli ruhu ona hörmət, həm də diqqət yaradır.

1966-cı ildə əvvəlcə LKGİ MK-da Gənclər Komitəsinin sədr müavini, sonra isə sədri təyin olunur. 1969-cu ildə N.Axundov Azərbaycan SSR Nazirlər Sovetinin referent vəzifəsinə irəli çəkilir. Elə bu vaxt o, ali təhsil almağın vacibliyini hiss edir. Həmin il qəbul imtahanlarını müvəffəqiyyətlə verib Azərbaycan Dövlət Neft və Kimya İnstitutuna daxil olur. İnstitutu bitirən Namiq ikinci təhsil almağı qərara alır. 1974-cü ildə Azərbaycan Dövlət Xarici Dillər İnstitutunun alman dili fakültəsinə daxil olur və 1978-ci ildə oranı bitirir.

Bu illər Namiq müəllim artıq yüksək dairələrdə, MK-da də tanınır. O isə gənclik həvəsi ilə həm rəyasət pillələri ilə qalxır, həm də təhsilini artırmaqda davam edir. Bunların hər ikisi o zaman Namiq müəllim üçün qoşa qanad idi.

1982-ci ildə Namiq müəllim Azərbaycan KP MK-nın beynəlxalq əlaqələr şöbəsinə müdir müavini vəzifəsinə irəli çəkilir. 1985-ci ilə kimi bu vəzifədə çalışır,

sonra ona şöbə müdirliyi həvalə olunur. Mərkəzi Komitədə beynəlxalq əlaqələr şöbəsi çox mühüm və məsuliyyətli şöbələrdən biri idi. Bu şöbədə işləyən adam bütün işgüzar xüsusiyyətlərə malik olmaqla yanaşı, həm də xarici siyasəti, beynəlxalq münasibətləri yaxşı bilməliydi. O günləri xatırlayan Namiq müəllim həmişə fəxrlə deyir ki, ulu öndər Heydər Əliyevlə işləmək özü bir məktəb idi. Bütün sahələri dərindən bilən Heydər Əliyev Azərbaycanı təkcə SSRİ-də yox, bütün dünyada tanıtmaq istəyirdi. Xarici ölkələrdə keçirilən Azərbaycan günləri bu sahədə çox böyük əhəmiyyətə malik idi.

1986-cı ildə Namiq müəllim Moskva İctimai Elmlər Akademiyasının Beynəlxalq əlaqələr şöbəsini bitirir, bir il sonra həmin institutda namizədlik dissertasiyası müdafiə edir. 1989-cu ilə kimi MK-da şöbəyə başçılıq edir. Burada işlədiyi müddətdə doğma xalqı və respublikası üçün bir çox vacib təşəbbüslər irəli sürür və bu təşəbbüslər böyük azərbaycanlı Heydər Əliyev tərəfindən dəstəklənir. Bu baxımdan, onun təşəbbüsü ilə 1970-1980-cı illərdə Fransa, Almaniya, İtaliya, Avstriya, İsveçrə, Yaponiya, Seneqal və s. ölkələrdə keçirilən Azərbaycan günləri xüsusi qeyd olunmalıdır. "Vətən" cəmiyyəti də Namiq müəllimin təşəbbüsü ilə yaranmışdı. Azərbaycanda "Vətən" cəmiyyətinin yaranması Sovet İttifaqı Kommunist Partiyasının Mərkəzi Komitəsində beynəlxalq əlaqələr şöbəsinin müdir müavini Karen Nersesoviç Brutensin və Sovet İttifaqı Kommunist Partiyasının Mərkəzi Komitəsində şöbə müdirinin 1-ci müavini Georgi Şahnazarovun – bu erməni daşnaklarının kəskin müqavimətinə tuş gəldi. Onlar deyirdilər ki, "Vətən" cəmiyyətinin yaranması azərbaycanlıların guya millətçiliyini artırır. Ancaq Heydər Əliyevin səyi sayəsində onların cəhdləri puça çıxdı.

İşinin və fəaliyyət dairəsinin gərgin və geniş olmasına baxmayaraq Namiq müəllim elmi işini də davam etdirir. 1991-ci ildə o, Moskva İctimai Elmlər Akademiyasında doktorluq dissertasiyasını müdafiə edir. Bu dəfə də ermənilər ona qarşı çıxırlar. Ancaq çayın həmişə axarına qarşı durmağı bacaran Namiq Axundov özünün elmi məntiqi ilə bu dəfə də erməniləri susdura bilir...

1985-ci ildə Namiq müəllim Azərbaycan Ali Sovetinin deputatı seçilir və Ali Sovetin sessiyasında xarici işlər üzrə komissiyanın sədri seçilir.

Namiq müəllim harada işləməsindən, hansı vəzifəni tutmasından asılı olmayaraq heç vaxt milli qayədən uzaqlaşmayıb. O, hər yerdə və hər zaman öz xalqını, öz yurdunu əsl vətəndaş qəlbi ilə sevmiş və buna da xidmət etmişdir.

Namiq müəllimin tutduğu kürsülər imkan vermişdi ki, dünyanın ən tanınmış şəxsləri ilə görüşsün, onlarla təmasda olsun. Bu şəxslər içərisində dövlət xadimləri də, ictimai-siyasi xadimlər də, hesabında milyardlar olan iş adamları da olubdur.

Azərbaycanın müstəqilliyi uğrunda mübarizədə bütün varlığı ilə çalışanlardan, bu mübarizənin ön sıralarında gedənlərdən biri də məhz Namiq müəllimdir.

1992-ci ildə Namiq müəllim Azərbaycan Respublikasının Milli Məclisinin Beynəlxalq münasibətlər şöbəsinin müdiri vəzifəsinə gətirilir. Burada o, 1997-ci ilə kimi işləyir.

Vətənə, xalqa bütün varlığı ilə onun xidmətləri, rəşadətli əməyi vaxtında və dəyərincə qiymətləndirilmişdir. Bu fədakar insan “Xalqlar Dostluğu” ordeni, Əmək igidliyi medalı ilə təltif olunmuşdur. Dəfələrlə Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin fəxri fərmanlarına layiq görülmüşdür. SSRİ Sülhü Müdafiə Komitəsinin Rəyasət Heyətinin, Asiya və Afrika Ölkələrinin Həmrəylik Komitəsinin Rəyasət Heyətinin üzvü seçilmişdir.

Namiq müəllim təkcə Azərbaycanda və keçmiş SSRİ miqyasında deyil, bizim ölkənin hüdudlarından çox-çox uzaqlarda da tanınırdı. O, Nyu-Orlean (ABŞ) və Luiziana (ABŞ) ştatının paytaxtı Boten Ruj şəhərinin fəxri vətəndaşı seçilmişdir.

Bundan başqa o, Neapol (İtaliya), Lüdvikshafen və Maynts (Almaniya) şəhərlərinin medalları ilə təltif olunmuşdur. Bura biz ona həm də bir sıra beynəlxalq təşkilatların verilmiş medal və mükafatlarını da əlavə edə bilərik.

Namiq müəllimin bir alim, mütəxəssis kimi pedaqoji fəaliyyəti diqqətə layiqdir. 1999-cu ildən bu günə kimi Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının beynəlxalq münasibətlər və xarici siyasət kafedrasının müəllimi, dosenti, professoru kimi fəaliyyət göstərmişdir.

Namiq müəllimi məhz bu cür tanıyırlar. O, olduqca sadə, heç kimdən fərqlənməyən bir həyat yaşayıb. Sadə olduğu qədər də təvazökar, qibtə olunacaq

qədər xeyirxahdır. O, ömrünün səksəninci baharını yaşayır. Ona uzun ömür, can sağlığı, işlərində uğurlar arzulayırıq.

Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, əməkdar elm xadimi, iqtisad elmləri doktoru, professor.

Əli Nuriyev

BÖYÜK ALİM, PEŞƏKƏR DÖVLƏT QULLUQÇUSU VƏ XEYİRXAH İNSAN

Bu günlərdə ad gününü böyük hörmətlə qeyd etdiyimiz professor Namiq Axundovun adına mən keçən əsrin 80-ci illərində mətbuat səhifələrində rast gəlmişəm. Dövlət İdarəçilik Akademiyasında işlədiyimiz vaxtda onu nisbətən yaxından tanımışam.

Namiq müəllim mənim diqqətimi birinci növbədə açıqqəlbliyi və səmimiyyəti ilə cəlb etmişdir. Bu yaxınlarda ad günü ərəfəsində onun haqqında yazılanlarla tanış oldum və çox mətləblər mənə aydın oldu. Çoxdan məlumdur ki, məqsədyönlü əmək,

ehtiyac və müxtəlif çətinliklərlə rastlaşmaq insanın bütün şəxsi keyfiyyətlərinin ən böyük tərbiyəsidir. Namiq müəllimin həyat yolu və şəxsi keyfiyyətləri birinci növbədə bu vaxtdan diqqəti cəlb edir.

Namiq müəllimin uşaqlıq və yeniyetmə cağları Böyük vətən müharibəsi və müharibədən sonra iqtisadiyyatın yenidən qurulmasına təsadüf edir. Məlumdur ki, bu illər çətin, aclıq, ehtiyac, əzizlərini itirmiş insanlar göz yaşına qərq olmuş illər idi. Eyni zamanda Namiq müəllim çox erkən müstəqil əmək fəaliyyətinə başlamışdır. Bütün bunlar onun əməksevərli, xeyirxahlıq, düzgünlük və açıq qəlblilik kimi müsbət keyfiyyətlərinin formalaşmasında mühüm rol oynamışdır. Namiq müəllim hələ çox gəncikən işlədiyi yerlərdə qabiliyyəti, işgüzarlığı özünü tez göstərmiş. Tutduğu vəzifələrdə tez-tez pillə-pillə yüksəlmişdir. Əmək fəaliyyətinə Elektron Maşınqayırma zavodunda başlayan gənc Namiq, çox çəkmir ki, Azərbaycan lenin Komsomolu Gənclər İttifaqında sektor müdiri, Azərbaycan Gənclər Komitəsində sədr müavini. Sonra isə sədr vəzifəsində işləyir. Çox çəkmir ki, onu Azərbzycan Kommunist Partiyası Mərkəzi Komitəsinə dəvət edirlər. O, 1964-1991-ci illərdə Mərkəzi Komitənin xarici əlaqələr şöbəsində müdir müavini, müdiri, 1992-1997-ci illərdə Azərbaycan Respublikası Ali Sovetində beynəlxalq Əlaqələr şöbəsinin müdiri kimi məsul vəzifədə işləyir. Bu illərdə Namiq müəllim xarici ölkələrlə Azərbaycan arasında əməkdaşlığın inkişafına, mehriban qonşuluq münasibətlərinin formalaşmasına özünün layiqli töhfəsini verir. Təsadüfi deyil ki, Namiq müəllim xarici əlaqələr şöbəsinin müdiri işlədiyi illərdə ABŞ-ın Yeni Oklian və və Bateniya şəhərlərinin və Nepolun fəxri vətəndaşı seçilmişdir.

Namiq müəllim Azərbaycan Pespubilkasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında fəaliyyəti məhsuldar və əhəmiyyətli olmuşdur. 1997-ci ildən başlayaraq o, bu akademiyada professor, magistratura fakültəsinin dekanı vəzifələrində işləmiş və hazırda rektorun müşaviri vəzifəsində işləyir. O, bu vəzifələrdə işləyərkən təhsilin inkişafına ozünün layiqli xidmətini göstərmişdir. Namiq müəllimin yazdığı dərs vəsaitləri, dərslik və metodik göstəriş və vəsaitlər müəllim və tələbələr tərəfindən razılıqla istifadə olunur.

Namiq müəllimin əməyi müvafiq dövlət sturukturları tərəfindən layiqincə qiymətləndirilmişdir. O, “Xalqlar dostluğu” ordeni, “Şərəfli əməyə görə” medalı ilə, Ali sovetin fəxri fərmanı ilə təltif olunmuşdur. Namiq müəllim insan ömrünün müdrüklük dövrünü yaşayır. Biz onu müdrük insan, məhsuldar alim kimi tanıyır və böyük hörmət bəsləyirik. Biz, sizə Namiq müəllim, bundan sonra da möhkəm can sağlığı, həmişə yaşar sevgisini arzulayırıq.

Filologiya elmləri doktoru, professor, Azərbaycan Respublikasının əməkdar müəllimi

Akif Bayramov

GƏNCLİK İLLƏRİNİN DOSTU

Hər bir insanın kimliyindən asılı olmayaraq, tutguğu mövqedən asılı olmayan həyatının ölçüsü və biçisi var. Görkəmli alim Qalileyin təbirincə desək ölçülməsi mümkün olan hər şeyi ölçmək lazımdır. Burada dəqiqliyi artırmağa güclü bir meyil haqqında söz açmaq istədiyim insan da insanlığın ölçü meyarının zirvəsində duranlardandır. Onun həyatı Azərbaycan gəncliyinin xarüqələr yaratdığı, dalbadal keçici bayraqlar aldığı yarış qalibi olduğumuz illərə təsədüf etdi, həyat ona gənclərlə birgə çalışmağı nəsib etdi.

Yaşadığımız həyatın müxtəlif sahələrində hər bir insanın, şəxsiyyətin göstərdiyi şəxsi nümuələridə onun mənəvi keyfiyyətləri üzə çıxır. İnsanın bir-birini tamamlayan, qarşılıqlı şəkildə uzlaşan hadisələrdə intelektual, emosional özünütəhlil

və fəaliyyət, həyatın müxtəlif sahələri barədə təsəvvürlər əks olunur. Bu mənada bizi əhatə edən ayrı-ayrı insanlar bizim üçün çox zaman örnək, nümunə olur, onlar qruplaşdırılaraq və ya fərqli olaraq təqdim oluna bilər. Amma elə insanlaq da var ki, onları məhdud əhatəmizdə qurplaşdırmaq çətindir.

Belə insanlardan biri də Namiq Atalla oğlu Axundovdur. Onu ötən əsrin altmışıncı illərindən Azərbaycan komsomlunun Mərkəzi komitəsində birgə işləməklə keçən əsrin altmışıncı illərindən tanıyıram.

Elmi bilik qazanmaq onu təcrübədən keçirmək, nəticədə ictimai hörmət və nüfuz sahibi olmaq təbii ki, Namiq müəllimə gərgin zəhmət hesabına başa gəlmişdi. Amma saydığımız daha hansı amillər olmalıdır ki, həm el-obanın, həm ictimai mühitin tanıdlğı və qəbul etdiyi bir şəxsiyyətə çevriləsən, həm də dövr üçün partiya və hökumətin rəğbətini qazanmaqla üstəlik ali mükafatlara da təqdim olunasan, Namiq müəllimin zəngin həyat təcrübəsi var. O, bu təcrübədən yerli yerində istifadə edir. Zəngin həyat təcrübəsindən yeri gəldikcə kitablarında, elmi çıxışlarında, dərs dediyi auditoriyalarda gənclərə həvəslə söhbət açır.

Mən Namiq müəllimin ad günlərində təbrik üçün həmişə ürəyimdən keçənləri poetik ifadələrlə çatdırmağı məqsədə uyğun saymışam. Onun yetmiş illik yubileyində aşağıdakı misralarla onun ad gününü vəsf etmişəm:

Kövrək olur insan yaşa dolanda
Xatirələr pərdə-pərdə dillənir.
Qəlbin sənin məhəbbətlə vuranda,
Ürəyində neçə nəğmə dillənir.

Ötüb-keçən acı-şirin günlərin,
Ümman olur göz önündə çağlayır.
Bağça-bağda ətir saçan güllərin,
Məlhəm olur səni cavan saxlayır.

Sən də açdın gül baxçanda gözünü,
Havan, suyun əzəl başdan saf oldu.

Xoş niyyətlə üzə dedin sözünü,
Əməlində elin sənə yar oldu.

Qartal kimi səmalara ucaldın,
Şimşək kimi zirvələrə yan aldın.
Gözəllikdən yetərincə kam aldın,
Etibarda dostlarına sən qaldın!

Yüksəkliyi saf əməldə gördün sən,
Əməl oldu səni daim yüksəldən.
Çörəyini insanlarla böldün sən,
Tanrı verdi qiymətini biləsən!

İnsan oğlu qəm şərabı içsə də,
Yaşam eşqi hər bir şeyə güc gəlir.
Dayanmadan illər gəlib keçsə də,
Həyat sənə yaşa deyir, gül deyir!

Cavan qalıb, yüz yaşını haqla sən,
Şah ömürdən günlər keçsin kədərsiz.
Həyat ilə əhdi-peyman bağla sən,
Onda görək yüz yaşında səni biz!

Namiq müəllimi səmimi insan, sədaqətli dost, təvazökar insan kimi tanıdığım üçün onunla bir yaxın həmkar, əqidə dostu olmağımla həmişə qürur duyuram.

Namiq Axundov - 75

Duzlu, məzəlidir sözün-söhbətin
Əvəzolunmazdır səmimiyyətin
Billurdan təmizdir sənin xislətin

Vəfalı oğlusan bizim millətin
Yaşa, Namiq müəllim, səni yüz yaşa!

Dostuna-tanışa dayaq olmusan
Gənc nəsillərə mayak olmusan
Vətən keşiyində oyaq olmusan olmusan
Bulud tək boşalıb, gah da dolmusan
Yaşa, Namiq müəllim, səni yüz yaşa!

Zəhməti hər şeydən üstün saymısan
Ömrün mənasını onda tapmısan
Qürurla boy atıb sən ucalmısan
Odur yetmiş beşdə cavan qalmısan
Yaşa, Namiq müəllim, səni yüz yaşa!

Yaxşını-pisləri görən gözün var
Deyilməmiş çoxlu söz-söhbətin var
İrəlidə səksənin var, yüzun var
Belə halda olmaz dünya sənə dar
Yaşa, Namiq müəllim, səni yüz yaşa!

Dost-tanışın tərif deyir şəninə
Boy atdiğın gül-çiçəkli elinə
Sən minginən ağ atının belinə
Yetmiş beşi almayasan vecinə
Yaşa, Namiq müəllim, səni yüz yaşa!

İşıqlı bir insan olan Namiq müəllimi 80 illik yubileyi münasibətilə ürəkdən təbrik edir, ona can sağlığı və yaradıcılıq uğurları arzulayıram.

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Dillər" kafedrasının müdiri, dosent

Yusif Ağayev

QAYĞIKEŞ İNSAN

Namiq müəllim, Sizi, Dövlət İdarəçilik Akademiyasının professorunu, Azərbaycanın görkəmli alimi və icimai xadimini, anadan olmağınızın 80 illiyi münasibəti ilə səmimi qəlbdən təbrik edir, Sizə möhkəm can sağlığı, gümrahlıq, elmi və pedoqoji fəaliyyətinizdə yeni-yeni uğurlar diləyirəm.

Siz Respublikamızda yaxşı tanınan ictimai xadim, müəllim, qayğıkeş və səmimi bir şəxsiyyətn kimi tanınmısınız. İşıqlı bir insansınız. Əmək fəaliyyətiniz, çoxsahəli, zəngin və şərəfli olmuşdur. Siz ölkəmizin ictimai-siyasi həyatında da fəal iştirak edən ziyalılarımızdansınız. Uzun illər beynəlxalq əlaqələr sahəsində çalışan bir şəxs kimi gənc diplomatların hazırlanmasında yaxından iştirak etmisiniz. Sizin rəhbərliyiniz altında formalaşmış gənc diplomatlar bu gün Azərbaycan diplomatiyasını dünyanın

müxtəlif ölkələrində uğurla təmsil edir. Siz beynəlxalq münasibətlər ixtisası üzrə Akademiyamızda gənc kadrların hazırlanmasında əlinizdən gələn hər şeyi edir, yüksək tələbkarlıq və təşkilatçılıq nümunəsi göstərirsiniz, əsil prinsipial hami tərbiyəçi kimi fəal çalışırsınız.

Sizin həm də çox illik səmərəli elmi-pedoqoji fəaliyyətiniz sahəsində əldə etdiyiniz nailiyyətlər, nəşr olunmuş bir çox kitablarınızın, tədris və fənn proqramlarınız tələbələrimiz üçün çox qiymətli və olduqca faydalıdır. Əsərlərinizin geniş oxucu kütləsi və beynəlxalq münasibətlər sahəsində çalışan mütəxəssislər, diplomatlar tərəfindən böyük maraqla qarşılanması fəxr ediləsi haldır və həm qürur doğurur həm də bizi çox sevindirir.

Biz bu gün Sizin akademiyada çalışmağınızdan böyük məmnunluq duyur, bizimlə olmağınıza çox sevinirik. Akademiyamızda təhsil alan gənc diplomatlar üçün Sizin təcrübəniz çox gərəklidir. Müxtəlif rəhbər vəzifələrdə çalışmış bir şəxsin dəyərli tövsiyələrinə onların hələ çox ehtiyacı vardır. Siz sadə, mehriban bir insan kimi hamının böyük hörmətini qazanmısınız. Həyatınızın ən məhsuldar 80 illik həyat yolunun zirvəsinə qədəm qoyursunuz. Bu münasıbətilə Sizi bir daha ürəkdən təbrik edir, ən xoş arzularımızı bildiririk.

Azərbaycan Prezidenti yanında Dövlət İdarəçlik Akademiyası tədris metodiki şöbəsinin tədris prosesinin tənzimlənməsi üzrə mütəxəsisi

Aydın Məmmədov

KÖKƏBAĞLILIĞI YAŞADAN İNSAN

Onu görkəmli alim olduğunu, qayğıkeş bir insan olduğunu, ətrafında olanlara hədsiz hörmət göstərmək istəyən təvazökar bir tələbkarlıqla hörmət göstərmək istəyində bulunan müqəddəs insanlardan biridir. Gənclik illərindən, hələ Azərbaycan komsomolu üzvü olduğum ilk vaxtlardan, ali məktəbdə oxuduğum tələbəlik illərindən tanıyıram. Tələbə dostlarımdan cəhub zonasından olanlar, xüsusən də Lənkərandan olanlar onun adını fəxrlə, böyük məmnunluqla çəkər, onun böyük bir insan olduğundan fəxrlə söhbət etməkdən məmnunluq duyardılar. Onun adının böyük ehtirama layiq olduğunu maraqlı söhbətlər etməklə öz hörmət və məhəbbətlərini bildirərdilər. Onun nüfuzuna, hörmətinə son dərəcə qibtə ilə

yanaşırdı. İllər gəlib keçdikcə Namiq Axundov illərlə irəliləyir, yeni təyinatlar cümeyi-halını dolğunlaşdırırdı. Mən onu iyrimi ildən artıqdır ki, tanıyıram. Onun səmimi və həssas bir insan olduğunu, insana qayğı ilə yanaşdığını, tələbələrinə qarşı həssas münasibət bəsləməsi, onların vətənə, xalqa məhəbbət hissi ilə tərbiyə olunmasına xüsusi tələbkarlıqla yanşması üçün son dərəcədə başqaları üçün nümunəyə çevrilir. Müşahidə edənlər onun kimi olmağa daha çox əhəmiyyət göstərir. Namiq müəllim magistura fakültəsinin dekanı işlədiyi vaxtlarda işin təşkili üçün pedaqoji imkanlardan bacarıqla istifadə edir, tələbələrin bilik, bacarıq əldə etməsi üçün ciddi təlabkarlıq göstərərdi. Onların dövlət idarəçiliyinin sirlərinə yiyələnməsi üçün ciddi tələbkarlıq göstərərdi.

Namiq müəllimin 80 illik yubileyi münasibəti ilə tədris şöbəsinin əməkdaşları adından təbrik edir. Ona ad günü münasibti ilə yeni uğurlar arzulayıram.

Tarix elmləri doktoru, professor,”Simurq” cəmiyyətinin rəhbəri.

Fuad Məmmədov

ИЗВЕСТНОМУ ГОСУДАРСТВЕННОМУ ДЕЯТЕЛЮ И ПЕДАГОГУ – НАМИКУ АХУНДОВУ ИСПОЛНЯЕТСЯ 80 ЛЕТ

Талантливый государственный деятель и педагог, Намик Ахундов прошел яркий жизненный путь. Это путь от слесаря Бакинского завода электронного машиностроения до руководителя Комитета молодежных организаций республики и заведующего международным отделом ЦК Компартии Азербайджана, от студента Азербайджанского Института нефти и химии до профессора Академии государственного управления при Президенте Азербайджанской Республики.

Намик Ахундов прошел богатый путь профессионального государственного деятеля. Он работал руководителем Бюро международного молодежного туризма «Спутник» при Центральном Комитете

Коммунистического Союза Молодежи Азербайджана, заведующим международным отделом Центрального Комитета Коммунистической партии Азербайджанской ССР, заведующим международным отделом Милли Меджлиса Азербайджана.

В течение многих лет Намик Ахундов официально представлял Азербайджан на некоторых представительных международных форумах, избирался почетным гражданином ряда зарубежных стран, депутатом нескольких созывов Верховного Совета Азербайджана. Он награжден орденами, медалями и почетнными грамотами Азербайджана и зарубежных стран.

Выпускник Академии общественных наук при ЦК КПСС, в последний период своей деятельности Намик Ахундов стал заниматься научными исследованиями, защитил докторскую диссертацию и перешел на работу в Академию государственного управления при Президенте Азербайджанской Республики, где одно время руководил отделом магистратуры. Им подготовлены не только сотни высококвалифицированных специалистов дипломатов, но и доктора философии в области международных отношений.

Из воспоминаний Намика Ахундова мы знаем, что как патриот и добросовестный коммунист он был инициатором поддержки многих талантливых людей, способных добиться международного признания и принести славу Азербайджану. Так, обладая дальновидностью, пользуясь доверием и поддержкой Первого секретаря Коммунистической партии Азербайджана, выдающегося политического и государственного деятеля Гейдара Алиева, Намик Ахундов выявил дарования и «дал путевку в жизнь» Муслиму Магомаеву, Гарри Каспарову и ряду других талантливых людей, впоследствии ставших знаменитостями всесоюзного и мирового масштаба.

Намик Ахундов отличается большой любовью к жизни, трудолюбием и патриотизмом. Будучи патриотом Азербайджана, он всегда выступал с различными политическими инициативами, нацеленными на развитие культуры международных отношений и внешней политики Азербайджана, развитие

международного сотрудничества нашей страны с зарубежными странами. Это жизнерадостный, никогда не унывающий человек, с неиссякаемым юмором, всегда открытый для дружбы и сотрудничества.

Желаю нашему уважаемому коллеге и другу долгих лет здоровой жизни и празднования новых замечательных юбилеев.

Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının beynəlxalq münasibətlər və xarici siyasət kafedrasının baş müəllimi

Fuad Şammədov

TANINMIŞ İCTİMAİ XADİM

Namiq müəllim haqqında söz söyləmək həm şərəflidir, həm də böyük məsuliyyətdir. Şərəflidir ona görək ki, ömrünün böyük bir hissəsini xalqına vicdanla xidmət edərək keçmiş dövlət idarəçiliyinin müxtəlif sahələrində çalışarkən xalqına və dövlətinə olan məhəbbətini əsla əsirgəməyən vətənpərvər bir şəxsiyyətin taleyindən bəhs edən vacib, lazımlı, gərəkli olan bir vətəndaşın, millətinə nümunə olan bir vətəndaş barədə mövzudur. Və məsuliyyətlidir ona görə ki, belə bir şəxsiyyət haqqında yazırsan..

Namiq müəllim ilə ilik tanışlığım qiyabi də olsa tələbəlik illərinə təsadüf etməkdədir. Xatirimdədir ki, 90-cı illərin əvvəllərində Azərbaycandan böyük bir

nümayəndə heyəti Türkiyəyə səfərə getmişdi. Türkiyə tərəfi bu səfərə böyük əhəmiyyət verdiyinə görə mətbuat, əsasən də televiziya kanalları ələxsus da xəbər proqramlarının əksər hissəsi bu səfərin təfərrüatlarına ayrılırdı. Türkiyənin dövlət və hökümət başçılarının Azərbaycan nümayəndə heyəti ilə keçirdiyi görüşləri tez-tez yayımlayan xəbər proqramlarında, xüsusilə də o dövrdə Türkiyənin xarici işlər naziri olan Hikmət Çətinin yanında dayanan şəxsi əyani tanımasam da mənə də onun kimliyi haqqında sual yaranmışdı...

İllər sonra Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında (DİA) işə başlarkən ilk qarşılaşdığım insanlardan biri tələbəlik illərindən qalan sualımın cavabını da mənə göstərdi. Təbii ki, bu şəxs tarix elmləri doktoru, professor Axundov Namiq Atalla oğlu idi...

Ümumiyyətlə, DİA-da işləmək çox şərəfli və qürurvericidir. Belə ki, bura hər zaman Azərbaycanın ictimai-siyasi həyatında xidmətləri və töhfələri olan tanınmış şəxslərin toplandığı məkan olmuşdur. Belə şəxsiyyətlərdən biri olan Namiq müəllim də özünəməxsus çalışma metodları ilə hər zaman öz fərqini hiss etdirmişdir. Taleyin gözəl payıdır ki, Magistratura şöbəsinin dekanı olan Namiq müəllimin 2005-2012-ci illərdə müavini kimi fəaliyyət göstərmişəm. Bu illər həyatımın ən maraqlı mərhələsi kimi xatirəmdə qalacaqdır.

Onun dövlət idarəçiliyi sahəsində əldə etdiyi təcrübəni təhsil sahəsində də tədbiq edə bilmə məharəti hər zaman kollektiv tərəfindən təqdirəlayiq addım kimi qiymətləndirilməkdədir. Cəmiyyət həyatından irəli gələn və qarşımıza çıxan hər yeni məsələnin öhdəsindən məharətlə gələ bilməsi onun peşəkar səviyyəli idarəçilik keyfiyyətlərindən xəbər verməkdədir.

Yüksək çinli məmurluq keçmişi olmasına baxmayaraq o, nümunəvi və əsl pedaqoqdur, İstər Bakı Dövlət Universitetində, istərsə də DİA-dakı pedaqoji fəaliyyəti müddətində nəinki dərsdən qalmaq, hətta bir dəfə də olsun dərsə gecikdiyini görən olmamışdır. Ümumiyyətlə, Namiq müəllim nizam-intizamlılığı öz həyat prinsipinə çevirən şəxsiyyətlərdəndir.

O, məhsuldar pedaqoli fəaliyyəti ilə bərabər, elmi-tədqiqat sahəsində də çox ciddi araşdırmaçı kimi tanınmaqdadır. Özəlliklə də beynəlxalq münasibətlər sahəsinə

dair ərsəyə gətirdiyi bir çox elmi əsərlər bunun bariz nümunəsidir. Özünə qarşı çox tələbkar olan Namiq müəllim elmi rəhbəri olduğu müxtəlif səviyyəli təhsil alanlara qarşı da eyni mövqe ilə yanaşmaqda və onların ixtisaslarını peşəkar səviyyədə mənimsəmələrinə böyük töhfə verməkdədir.

Namiq müəllim çox xoşbəxt insandır. Ona görə ki, ömrünün yarısından çoxu Ümummilli Liderin ətrafında keçmişdir. Həm sovet, həm də müstəqillik dövrünə təsadüf edən illərdə o, Ulu Öndərin etimad göstərdiyi məmurlardan və Onun kursunu dürüst və çox ciddi həyata keçirən icraçılardan biri olmuşdur. Bir sözlə desək, Namiq müəllim Heydər Əliyev Məktəbinin yetirməsidir.

Namiq müəllim istənilən yaşda insanla yoldaşlıq edə biləcək keyfiyyətlərə sahibdir. Həmyaşıdı olan dostları ilə yanaşı, xüsusilə gənclər də onunla yol yoldaşı olmağı və üzün müddət söhbət etməyi çox xoşlayırlar. Belə ki, ona “Hamının dostu” ləqəbi boş yerə verilməyib...

O, sahib olduğu keyfiyyətlərə görə, yəni xoş xasiyyətli, səmimi, gülərüzlü, mehriban, dürüst və dəqiqliyi ilə əhatəsində olan insanlara, o cümlədən, bizlərə hər zaman örnək olmuşdur. Məhz bu yüksək insani keyfiyyətləri ona həmişə Akademiyanın müəllim və tələbələrinin dərin hörmətini qazanmasına, onların sevimlisinə çevrilmisinə səbəb olmuşdur.

Sonda ona səslənərək demək istəyirəm ki, “Hamımızın sevimlisi” çoxdəyərli Namiq müəllim, Sizi 80 yaşınız münasibətilə səmimi qəlbdən təbrik edir, hərtərəfli fəaliyyətinizdə Sizə bundan sonra da silsilə uğurlar arzulayıram.

Sadə, tələbkar, tələbkar olduğu qədər təvazökar, qayğıkeş olan bu geniş ürəkli müqəddəs insana ildönümü münasibəti ilə sonsuz uğurlar arzulayıram.

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasinin Elmi katibi, dosent.

Sakit Əliyev

XEYİRXAHLIQ MİSSİYASINI DAŞIYAN İNSAN

Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akedemiyası "Beynəlxalq münasibətlər və xarici siyasət" kafedrasının professoru Namiq Axundovu otuz ildən çoxdur ki, birgə işləməklə tanıyıram. Namiq müəllim uzun illər rəsmi dövlət vəzifələrində məsul işlərdə çalışıb. Namiq müəllim həmişə özünün səmiyyəti və insanpərvərliyi ilə seçilən bir insandır. Namiq müəllim ılə uzun müddət təhsil sahəsində birlikdə çalışmışıq. Müəllimlər, həm də tələbələr arasında böyük hörmət və nüfuza malik olan Namiq müəllim həmişə ədalətin tərəfində olub. O, düzgünlüyü sevən insan olub, haqsızlığı sevməyib, insanlara doğru- düzgün yol göstərməyi bir rəhbər işçi kimi hər şeydən üstün tutub. Adamlara ağıllı məsləhətlər verməyi özünün müqədds işi sayıb.

Namiq müəllimdəki bu humanizmi onu insanlara sevdirir. Təsadüfi deyil ki, ona hamnın dostu adı veriblər. Xeyirxahlıq missiyasını daşımaq həm ağırdır, həm məsuliyyətlidir, həm də çox şərəfli bir işdir. Mən Namiq müəllimlə eyni vaxtda dekan vəzifəsində çalışmışam. Onun nəzəri biliyi ilə yanaşı, həm də təcrübi biliyi bizim üçün örnək olub.

O, uzun illər Heydər Əliyev məktəbinin sadiq müdavmlərindən olduğunu əməli işləri ilə sübut etmişdi. Heydər Əliyevin Azərbaycan KP MK-nın birinci katibi işlədiyi illərdə Mk-nın “Beynəlxalq münasibətlər və xarici siyasət” şöbəsinində müdir müavini vəzifəsinə irəli çəkilmiş, 1985-ci ilə kimi bu zəifədə çalışmış, sonra isə şöbənin müdirliyi ona həvalə edilmişdir. Bu şöbə çox mühüm və məsuliyyətli şöbələrdən biri idi. Burada işləyən adam bütün işgüzar xüsusiyyətlərə malik olmaqla yanaşı, həm də xarici siyasət və beynəlxalq münasibtləri yaxşı bilməlidir. O günləri xatırlayan Namiq müəllim həmişə fəxrlə deyir ki, ulu öndər Heydər Əliyevlə işləmək özü bir məktəb idi. Bütün sahələri dərindən bilən Heydər Əliyev Azərbaycanı təkcə SSRİ-də yox, bütün dünyada tanıtmaq istəyirdi. Müstəqil Azərbaycan respublikasının Prezidenti olduğu illərdə də həmin şöbədə çalışıb. O, Əliyev ideyalarının həqiqi təbliğatçısıdır. Onun yaratdığı məktəbin layiqli davamçılarından biridir. Namiq müəllim dünyanın ən tanınmış şəxsləri ilə görüşmüş, onlarla təmasda olmuşdur. Bu şəxslər içərisində dövlət xadimləri də, ictimai –siyasi xadimlər də, hesabında milyardlar olan iş adamları da olmuşdur.

Namiq müəllimin 80 illik yubileyinə hazırlaşırıq. Namiq müəllim həyatının bu illərinin hamısını mənalı yaşayıb. Gözəl insan Namiq müəllimə can sağlığı, uzun ömür və işlərində uğurlar arzulayiram.



Adil Musayev

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının komendantı

TƏVAZÖKAR İNSAN

Bizim hər birimiz bu dünyada doğulmağımıza və yaşadığımıza görə ən əvvəl ulu tanrıya, hər an qarşılarında məsuliyyət daşımalı olduğumuz valideynlərimizə borcluyuq. Yaşadığımız dünyanın, eləcə də sakini olduğumuz Azərbaycanımızın o qədər gözəllikləri vardır ki, ayrılıqda hər bir insana ömrü bu gözəllikləri görməyə, duymağa, yaşamağa və yaratmağa kifayət etməz. Ona görə də hər bir insana həyatı boyu qarşıda duran layiqi vəzifələrini layiqincə gəlmək üçün çalışmalı, yarana biləcək çətinliklərə sinə gərməlidi. Xalqına, vətəninə qarşı olan sevgisini və istəyini daima yaşatmalı və məqsədlərinə çatmaq üçün vətən məhəbbətini, xalqına olan sevgisini qüvvət mənbəyi hesab etməli.

İnsan həyatının bütün dövrləri gözəl və mənalıdı. Sadəcə olaraq bütün mərhələlərdə olan və həyatımızı mənalandıran gözəllikləri görməli, hər yaş dövrünün sevincini yaşamalıdı. Həyat həmişə cəsurları sevmiş, öz məqsədi uğrunda inamla mübarizə aparanları, xalqina xidmət sahəsində calışanları qorumuşdur. Həyat eşqi elə bir mənəvi qüvvədi ki, o hər bir insanın həyatinda mövcud olan çətinliklərin öhdəsindən gələ bilməyə və baş vermiş uğursuzliqları, cətinlikləri aradan qaldırmağa, haqqin nahaq üzərində qələbə çalmağına kömək edir.

Namiq müəllimi keçən əsrin 60-ci illərindən mətbuatdan, ictimai-siyasi həyatdaki fəal iştirakından tanıyıram. Azərbaycanda ictimai-siyasi həyatda fəal mövqe tutmuş, bir ali məktəbdə tanınmış, barmaqla göstərilən adam olmuş, sovetlər dövründə tanınmış, komsomol və partiya orqanlarının elitar yüksək vəzifələr tutmuş bir insan kimi tanıyıram. Bir vaxtalar heç aglima da gəlməzdi ki, həmin qibtə etdiyim adamla elitar bir təhsil ocağında birgə işləyəcəyəm. Onunla ilk tanışlığım böyük təəsurat yaratdı.

İnsanın mənəvi dəyərini müəyyən edən dəyərlərdən biri də onun mənən insanlara hədsiz dərəcədə qayğı göstərməsi, qarşısındakı adamı hərəkətlərinə, hissinə və duyğusuna, onun bütün hərəkətlərinə qarşı tələbkarlıq, eyni zamanda təvazökarlıq nümunəsi göstərməkdir. Elə səciyyəvi xüsusiyyətləri özündə əks etdirən şəxslərdən biri də Namiq Atalla oğlu Axundovdur. Uzun illər partiya, komsomol orqanlarında işləmiş zəngin iş həyatı təcrübəsinə malik bir insanla həmsöhbət olmaq böyük şərəfdir. Sadə və ağıllı düşünməsi həyatında baş verənləri tale qismət kimi qəbul etməsi, yaşından aslı olmayaraq tərəf müqabilləri ilə xoş ünsiyyət qura bilməsi məndə çox böyük heyranlıq yaratdı. Ziyalılıq baş vermiş, hadisələrlə bağlı məntiqli izahat verməsi onun mənəvi dünyasının nə qədər zəngin olmasından xəbər verir.

Ermənilərin törətdiyi Dağlıq Qarabağ hadisələri və xalqımızın başına gətirdiyi müsibətlərlə bağlı hadisələr, bu münaqişənin aradan qaldırılmasında Azərbaycanın rəhbər təşkilatlarının yorulmaz fəaliyyəti, itirilmiş torpaqlarlmızın azad edilməsi, ölkənin ərazi bütövlüyünün təmin edilməsi sahəsində həssaslıqla çalışması sahəsində nə qədər həssaslıq göstərdiyi Namiq Axundovun ən böyük qayğılarndandır. Hadisələrin başladğı ilk dövrlərdə rəhbər işçilərin yerlərdə tez-tez olduğu vaxtlarda

Namiq müəllim Qarabağın müxtəlif ərazilərində insanlar arasında olur. Azərbaycanın ərazi bütölüyünün pozulması barədə söhbətlər zamanı daşnaq ermənilər tərəfindən atəşə tutulur, ağır bədən yarası alır. Həkimlərin ciddi səyi nəticəsində onun həyatıı xilas olunur.

Sevil Məmmədova

Azərbaycan Respubilikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası Müdafiə Şurasının katibi

O, KOMSOMOLUN YETİŞDİRDİYİ KADRLARDANDIR

Sovet cəmiyyətinin aparıcı prinsiplərindən ən başlıcası o idi ki, kadırların seçilib yerləşdirilməsi və tərbiyə olunması sahəsinə xüsusi əhəmiyyət verilirdi. Kadır təsadüfən irəli çəkilmirdi. Kadırın işgüzarlığı, bacarığı, səriştəsi, mənəvi keyfiyyətləri nəzərə alınaraq ona etimad göstərilirdi. Dövlət işində çalışmaq üçün, ilk növbədə komsomol təşkilatında fəaliyyət göstərməli, ilk komsomol təşkilatı bürosunun katibi, büro üzvü və katibi olmalı, ictimai tapşırıqları yerinə yetirməli, ondan sonra da partiya və sovet orqanlarında rəhbər vəzifələrə irəli çəkilməlidir. Namiq Axundov da bu yolu keçmiş gənclərdən olub. Komsomol işində özünü doğruldan, mən deyərdim ki, başqalarına nümunə olan cəhtlərinə görə Azərbaycan Kommünist Partıyası Mərkəzi Komitəsinin aparatına rəhbər vəzifəyə irəli çəkilib. Burada layiqincə işlədiyi

üçün onun Azərbaycan cəmiyyətində xüsusi hörmət və nüfuzu olub. Görkəmli dövlət və Partiya xadimi, ümummili lider Heydər Əliyevlə bir işlədiyinə görə Onun məktəbini keçib, onun tələbkarlığı, tərbiyəsi sahəsində Mərkəzi Komitənin nüfuzlu, hərtərəfli təşkilatçılıq qabiliyyətinə malik olan, savadlı işçilərindən biri kimi tanınıb.

Mən Namiq müəllimi gəncliyimdən tanıyıram. Komsomol və partiya işində işlədiyi vaxtlardan Mərkəzi Komitənin "Beynəlxalq münasibətlər və xarici siyasət" şöbəsində müdir işlədiyi illərdən birgə fəaliyyətdən tanışam. O, çox tələbkar, inzibatçı, həm də qayğıkeş bir insan kimi adama həssaslıqla yanaşan, hamıda tərbiyəçi təsiri bağışlayırdı.

Tale elə gətirdi ki, cəmiyyətdə gedən dəyişiklik mənə onunla bir kollektivdə işləmək xoşbəxtliyini qismət eylədi. Azərbaycan Respubilikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında birgə işlədiyi ilk vaxtlardan onu daha yaxından tanımağa başladım. O, Akademiyada Magistratura fakültəsinin dekanı işləməyə başladığı dövrlərdə tələbələrin təlim, tərbiyəsinə, onların öyrəndikləri ixtisasa layiqincə yiyələnməsi üçün xüsusi tələbkarıq göstərir və istəyinə də nail olurdu. Uzun illərdir ki, Akademiyada fəaliyyət göstərən Müdafiə Şurasının elmi katibiyəm. Bu müddətdə Namiq müəllim şuranın bütün iclaslarında fəal iştirak edir, iddiaçıların apardığı elmi araşdırmalar barədə obyektiv iradlar tutmaqla yanaşı, maraqlı elmi məsləhət və tövsiyələr verir, elmi araşdırmaların gələcəkdə verəcəyi töfələr barədə öz mülahizələrini, elmi yeniliyini bildirir.

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Sorğu" Sosioloji İnstitutunun direktoru

Rüfət Quliyev

GÖRKƏMLİ ALİM

Mən Namiq Axundovu 1967-ci ildən tanıyıram. O zaman mən Azərbaycan Komsomolu Mərkəzi Komitəsinin Tələbə gənclər şöbəsində çalışırdım. Namiq müəllim isə Gənclər Təşkilatları Komitəsinin sədri idi. 1971-ci ilə qədər biz sıx təmasda olduq. Məhz bu illər ərzində mən Namiq müəllimin nə qədər ağıllı, bacarıqlı, insanpərvər adam, əsl ziyalı şəxsiyyət olduğunun şahidi oldum.

Namiq müəllim professional idi, gördüyü iş sahəsini bütün incəlikləri ilə bilirdi. Ən əsası isə bu idi ki, o hər hansı işi görərkən birinci növbədə xalqını, millətini düşünürdü və çalışırdı ki, Azərbaycanı və respublikamızın gənclərini bütün dünyada tanıtsın və tərənnüm etsin. Yeri gəlmişkən, qeyd etmək istərdim ki, nəinki söhbət

açdığım dövrdə, sonralar da bütün fəaliyyəti zamanı, hətta bu günün özündə də Namiq müəllim birinci növbədə vətənə, xalqına xidmət edir.

Namiq müəllim beynəlxalq əhəmiyyətli çox möhtəşəm tədbirlərin məhz Azərbaycanda keçirilməsinə nail oldu. Bu tədbirlərdən biri 1969-cu ildə Bakıda böyük müvəffəqiyyətlə keçirilmiş Sovet-Yaponiya gənclərinin festivalı idi. Festivalın hazırlanması və keçirilməsi üçün təşkilat komitəsi yaradılmışdı və bu quruma rəhbərlik məhz Namiq Axundova tapşırılmışdı. Bu iş olduqca ağır və məsuliyyətli iş idi. Namiq müəllim bu işin öhdəsindən məharətlə gəldi. Qısa müddət ərzində o, qərargah yaratdı və oraya respublikanın ən fəal gənclərini, cəmiyyətin bütün sahələrini təmsil edən görkəmli mütəxəssisləri və incəsənət xadimlərini cəlb etdi. Namiq müəllim qərargaha cəlb olunmuş mütəxəssislərin konkret bacarıqlarını çox məharətlə nəzərə alaraq, festivala hazırlığın maksimum dərəcədə səmərəli və uğurlu olmasına nail oldu.

Festivalın keçirilməsinin əsas məkanı kimi Bakının yaxınlığında Zuğulba qəsəbəsində yerləşən "Gənclik" Beynəlxalq gənclər mərkəzi seçilmişdi. O zaman Sovet İttifaqında bir neçə beynəlxalq gənclər mərkəzləri fəaliyyət göstərirdi. Zuğulbadakı gənclər mərkəzi yaradılmış şəraiti və göstərdiyi xidmətlərin keyfiyyətinə görə onların arasında seçilirdi.

Buna baxmayaraq Yaponiya kimi inkişaf etmiş ölkədən qonaqları layiqincə qarşılamaq üçün "Gənclik" mərkəzində çox intensiv surətdə təmir və abadlıq işləri aparılırdı. "Gənclik" mərkəzinin direktoru mərhum Bəhlul Əliyev mərkəzi ideal vəziyyətə salmaq üçün əlindən gələni etmişdi. Ona görə biz-qərargah üzvləri festival öncəsi yaradılmış şəraitlə tanış olan zaman Bəhlul Əliyev fərəh hissi ilə soruşdu: "Hə, necədir? Görürsüz, hər şey əladır!"

Doğrudan da "Gənclik" mərkəzini tanımaq olmurdu. Konfrans zalı, auditoriyalar, yeməkxana, bağ-bağça, əyləncə yerləri – bunlar hamısı səliqəli halda idilər, göz oxşayırdılar.

Qərargah üzvləri, demək olar ki, bu səliqə-sahmana heyran olmuşdular. Hamı Bəhlul müəllimə razılığını bildirir, gördüyü işə görə ona təşəkkür edirdi. Bu zaman

Namiq Axundov üzünü mərkəz direktoruna tutub dedi: “Bəs ayaqyolu otaqları hanı, siz bizə ayaqyolu otaqlarını göstərin”.

Bəhlul müəllim sanki inciyən kimi: “Biz bu qədər iş görmüşük, siz isə hansısa ayaqyolunu soruşursunuz. Ayaqyolunun bura nə dəxli var ki?” Namiq müəllim bu sözlərə məhəl qoymayıb yenə də öz tələbini təkrar edərək: “Ayaqyolu otaqlarını, daha doğrusu, tualetləri göstərin” – dedi. Bəhlul müəllim bu tələbə, əlbəttə, tabe oldu və bizə bir-bir tualetləri göstərdi.

Gördüyümüz mənzərə bizi məyus etdi. Tualetlər antisanitar vəziyyətdə, bərbad halda idilər. Namiq müəllim gördüklərindən çox kədərləndi və mərkəzin direktoruna öz qəti narazılığını bildirdi. “Sizin gördüyünüz işi qeyri-qənaətbəxş hesab edirəm. Siz abadlıq işlərini məhz tualetlərdən başlamalı idiz, qalanlar isə yalnız dekorasiyadan başqa bir şey deyil. Əgər qonaqlar tualetlərin bu kökdə olduğunu görsələr, onlar bütün bizim yaratdığımız şəraitə butaforiya kimi baxarlar, böyük zəhmət bahasına gördüyümüz işləri gözdən pərdə asmaq kimi qiymətləndirərlər. Niyə belə olmalıdır? Axı biz həqiqətən bacarıqlı, yüksək mədəniyyətli xalqıq, bunu hər yerdə hər kəsə göstərməli və birinci növbədə təmizliyimizi, saflığımızı, sanitar mədəniyyətimizi nümayiş etdirməliyik”.

Bax belə idi bizim Namiq müəllim gənclik yaşlarında. Sonrakı illərdə də bütün ömrü boyu Namiq müəllim həmişə bu təmizlik, saflıqla yaşayıb-yaratmışdır. Bu gün də biz onu həmişəki kimi səliqəli, sözü və əməlində dəqiq, özünə və ətrafdakılara qarşı tələbkar, bütün qəlbi ilə dostlarına, millətinə və dövlətinə sadiq bir vətən oğlu kimi görürük və bununla fəxr edirik.

Filologiya üzrə elmlər doktoru, Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının dosenti, Azərbaycan yazıçılar birliyinin üzvü, "Qızıl Qələm mükafatı" laureatı.

Ziyəddin Məhərrəmov

O, DÜNYAYA BAHARDA GƏLMİŞDİ..

Yazın gəlməsini səbrsizliklə gözləyən ata tez-tez xanımına suallar verməyə, onun dünyaya gətirəcəyi övladının oğlan və ya qız olacağını yəqinləşdirmək məqsədi ilə ona maraqlı suallar verir, xoş müjdəli, könül oxşayan, fərəh doğuran, gəncliyinin növrağını sevinclərə qərq edən bir duyqulu, gələcəyə ümid dolu xoş xəbər eşidəcəyi anı doğma sevgilisinin dilindən eşitməyi nə qədər həsrətlə gözləmişdi.

Dəfələrlə etdiyi söhbətlərin məzmununda ailə, uşaq, gələcək günlərin eşqinə apardığı uzun-uzadı təkrar söhbətlər etməkdən bəzən utandığından bir sözün işlədilməməsində iradəsinə hakim kəsilməyi, ürəyindən keçənləri pünhan saxlamağı hər şeydən üstün tuturdu, yaddaşının və iradəsinin nəzarətinə buraxmışdı. Xumra xalanın ürəyinə dammışdı ki, tərədüdləri, iman-gümanları ailədə dünyaya oğul uşağının gələcəyinə onda bir əminlik yaratmış, tərəddüdlü mühakimələrə son verməyin artıq vaxtının çatdığından xəbər verirdi. Günlərin bir-birini əvəz etməsini,

Novruz bayramının gəlməsini, Cənubdan doğan günəşin zərrin şəfəqləri altında yaz-tarla işlərinə böyük maraqla başlamağı. Allahtalanın bəxş etdiyi nemətlərin bolluğunda axtarıb-aradıla. Günlərin bir-birini əvəz etməsini səbrsizliklə gözləyən ailədəki sevinc şəhərin böyük bir məhəsində surətlə yayıldı. Atalla kişini kim görürdüsə, ona gözaydınlığı verməyi Novruz təbrikindən də vacib bir duyğu olduğunu, gənc atanın gözünü dünyaya təzəcə açan bu məsum körpənin, kim bilir, böyüyəndə gələcəyin ən sayılah-seçilən məşhurlarından olcaqdı. Ata bu təbriklərdən xoşhal olur, ata olmağından hədsiz qürur duyurdu, bunu özünə şərəf sayırdı, ona görə şərəf sayırdı ki, bu onun qüruruna, mənəviyyatına, bütün varlığına mayak olacaqdı…

Bu şərəf sayılan gün 1940-cı ilin aprel ayının 7-sinə düşdü, qohum–qonşular bu məsum körpənin adını Namiq qoymağı atasına babal qoydular. Günlər bir-birini əvəz edir, aylar illərə qovuşur balaca Namiqin körpəlik illəri Böyük Vətən Müharibəsinin davam etdiyi ağır illərə düşür. Ailə müharibənin yaratdığı maddi çətinliklər üzündən yaşayış yerini dəyişdirmək zəruriyyəti ilə qarşılaşır, Lənkərandan Bakıya köç edirlər. Çətinliklərə, ailəni sıxan maddi və mənəvi üzüntülərə baxmayaraq, yaşam tərzinə uyğunlaşan Axundovlar ailəsi qohum-qələvə, dost-tanışlar tərəfindən bəxtəvərlik nümunəsi kimi qiymətləndirilir. Tanış-bilişlər Namiqin şəhərin ən qabaqcıl təhsil ocaqlarından olan 134 saylı məktəbin birinci sinfində oxuyacağı barədə arada gəzən söz-söhbətlər yaxın adamların qürur və güvəncinə səbəb olur, qohumlar arasında köçüb Bakıda yaşamaq arzusunda olanların sayını artırır. İllərlə birgə addımlayan Namiq, məktəbə birinci sinfə gəldiyi 1948-ci ilin 1 sentiyabrında keçirdiyi ilk sevincin fərəhli anlarını onun üçün yaddaqalan müxtəlif əlamətdar hadisələri özündə əks etdirən, xoş xatirələrlə zəngin olan hadisələrın ovqatını yaşadır. Xatirələrində qalan hadisələri yaddaşında vərəqlədi, komsomol sırasına yaşı tamam olmamış qəbul edilməsi, ilk komsomol təçkilatının katibi seçilməsi, Azərbaycan LKGİ Mərkəzi Komitəsinin büro üzvü, həmçinin Bakı Şəhər Konitəsinin və Rayon Komitəsinin plenum üzvü və Azərbaycan komsomolunun XXV və XXVI qurultaylarının nümayəndəsi seçilməsi kimi yaddaqalan unudulmaz xatirələrlə dolu gələcəyə böyük ümidlər bəslədiyi günlər nə bilim, saymaqla qurtaran deyil, bir deyil, beş deyil?!.. yenidən orta məktəbi bitirib kamal attestatıni aldığı 1958-ci ilin avqustunda bu

sevincin ikiqat anlarını yaşayacağı günlərin zirvəsi hələ 1960-cı ildə M. Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutunun Kimya texnologiyası fakültəsinə müvəffəqiyyətlə imtahan verərək qəbul olduğu gün indinin özündə də onun hafizəsində əvvəlki sevinclərinin şahı kimi qiymətləndirilir.

Ali məktəbdə oxuduğu illərdə Namiq Axundovun ictimai-siyasi işlərdə yaxından iştirakı aparıcı rəhbərlərin diqqətindən yayınmır, ömrünün ən gənc çağlarında, 22 yaşlı bu cavan oğlanın Azərbaycan Gənclər İttifaqının Mərkəzi Komitəsinində təlimatçı vəzifəsinə irəli çəkilməsi, komsomolun Mərkəzi Komitəsində bölmə müdiri, sonradan, daha doğrusu 1967-ci ildə Gənclər Təşkilatı Komitənin əvvəlcə sədrin müavini, sonra sədri seçilir. 1969-cu ildə Azərbaycan Respublikasə Nazirlər Sovetinin böyük referenti, 1982-ci ildən Azərbaycan KP MK-nın beynəlxalq əlaqələr şöbəsində müdirin müavini, 1984-cü ildə həmin şöbənin müdiri vəzifəsində çalışmışdır. Respublikanın ictimai-siyasi və mədəni həyatında yaxından iştirak etməsini nəzərə alaraq, tapşırılan işin öhdəsindən layiqincə gəldiyinə görə Namiq müəllimi dəfələrlə SSRİ-nin Xarici ölkələrlə dostluq cəmiyyətinin, Asiya və Afrika ölkələri ilə Sovet həmrəyliyi komitəsinin prezidium üzvü vəzifələrinə seçilmişdir. Bu vəzifələrdə göstərdiyi səyləri, işgüzarlığı yüksək qiymətləndirilmiş, 1985-ci ildə Azərbaycan Respublikası Ali Sovetinə seçkilər zamanı onun deputat seçilməsi və parlamentin xarici işlər üzrə komissiya sədrinin müavini kimi məsul bir vəzifənin öhdəsindən şərəflə, həm də layiqincə gəlmişdir. Namiq müəllimin bu təşkilatçılıq, həm də tələbkarlıqla üzvi surətdə əlaqələndirilən əvəzolunmaz nəcib keyfiyyətləri nəzərdə saxlanıldığından 1992-1996-cı illərdə Azərbaycan Respublikası Milli Məclisinin beynəlxalq münasibətlər şöbəsinin müdiri vəzifəsinə və iri miqyaslı beynəlxalq tədbirlərin keçirilməsi üzrə yaradılan qərargahların rəhbəri ictimai vəzifələri yalnız ona tapşırırlar. 1997-ci ildən əvvəlcə Bakı Sosial İdarəetmə və Poitologiya İnstitutunda dosent və professor vəzifələrində çalışmış, həmin elmi adı daşımaqla Azərbaycan Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Beynəlxalq münasibətləri kafedrasının professoru, 2004-cü ildən 2013-cü ilin axırlarınadək magisratura üzrə dekan olmuşdur.

Onun Moskvada Sov. İKP MK yanında İctimai Elmlər Akademiyasının «Beynəlxalq münasibətlər» ixtisası üzrə şöbəni fərqlənmə diplomu ilə 1982-ci ildə bitirməsi və həmin akademiyada 1987-ci ildə tarix ixtisası üzrə namizədlik dissertasiyasını müdafiə edərək elmlər namizədi elmi dərəcəsini alması, nəhayət 1991-ci ildə isə Moskvada Rusiya İdarəçilik Akademiyasında «Müasir dünya siyasətində xalq demokratiyası" mövzusunda doktorluq dissertasiyası müdafiə etməsi, Xarici Dillər İnstitutunun Alman dili fakültəsini bitirməsi həyatının ən yaddaqalan anlarındandır...

Professor Azərbaycanda hamının tanıdığı, hamının sevdiyi, hamının hörmət elədiyi, tələbələrinin hamısının onun qayğısına ehtiyac duyduğu alimlərdən, müəllimlərindən ən çox seviləni, təqdir olunanıdır. Əlli ildən artıq ictimai-siyasi fəaliyyətlə məşğul olan, respublikada və onun sərhərlərindən uzaqlarda yüksək qiymətləndirilən professor N. Axundovun həyat və fəaliyyəti həmişə yüksək qiymətləndirilmişdir. Onun Heydər Əliyev məktəbinin mübariz yetirmələrindən olduğunu xatırlatmamaq olmaz. Bunu geniş ictimaiyyətə bildirmək olduqca zərridir. Bu hazırda çox aktual səslənər. O, yüksək dövlət təltifləri ilə fərqlənən yaradıcı ziyalılarımızdandır. Onun «Xalqlar Dostluğu» ordeni, «Əməkdə fərqlənməyə görə» medalı, Azərbaycan Respublikası Ali Sovetinin Fəxri Fərmanına layiq görülməsi əməyinə verilən qiymətin bariz təzahürüdür. Namiq müəllimin Amerika Birləşmiş Ştaylarının Yeni Orlean və Boten Ruj şəhərlərinin fəxri vətəndaşı seçilməsi, İtaliyanın Neopol və Almaniyanın Lüdviqsxaven şəhərlərinin gümüş medalları ilə həmçinin təltif olunması, Türkiyə, Almaniya, Fransa parlamentlərinin təsis etdikləri gümüş medallarla təltif olunması azərbaycanlı ziyalısının dövlətçilik və idarəçilik sahəsindəki xidmətləırinə, eyni zamanda xarici dövlətlər arasında diplomatik münasibətlərin yüksək səvivvədə qurulmasna əvəzsiz töhfə olması kimi qiymətləndirilməlidir.

Namiq müəllimin yorulmaq bilməyən, geniş diapozana malik, hərtərəfli bir elm adamı olduğu azərbaycan cəmiyyətində hamı tərəfindən qəbul olunur. Onun
müəllifi olduğu əsərləri elmi məqalələri, üç kitabdan ibarət olan «Dünya dövlətləriin əsas coğrafi, sosial və siyasi göstəriciləri» dərsliklərində Avrasiya dövlətləri,

Amerika dövlətləri, Avistraliya, Okeaniya dövlətləri və Antarktida dövlətlərinin əsas göstəriciləri barədə geniş məlumatları özündə əks etdirən bu nəşrlər Bakı Dövlət Universitetinin «Avropa və Amerika ölkələrinin ən yeni tarix kafedrasının professoru, tarix elmləri doktoru M.C. Qasımovun, Azərbaycan Respubilikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Elmi Metodik Şurasınn sabiq sədri professor, əməkdar elm xadimi Seyfəddin Qəndilovun sədrliyi ilə tələbələr üçün dərs vəsaiti kimi nəşr olunmuşdur. Bu dərs vəsaitləri dövlət məmurları, parlament üzvləri, biznesmenlərlə yanaşı beynəlxalq münasibətlər, tarix, iqtisadiyyat, coğrafiya, jurnalistika fakültələrində oxuyan bakalavr və magistr, həmçinin orta və ali məktəblərin müvafiq fənlərini tədris edən müəllimlrəri üçün dərs vəsati kimi nəzərdə tutulmuşdur.

Hamının hədsiz marağı ilə qarşılanan bu dərs vəsaitlərinin «Müəllifdən» başlığı altında verilən hissədə Yunan filosofu və alimi Aristoteldən nümunələr gətirilən müdrik sözlər - «Heç nə bilməyən və bilməyə çalışmayan adam çox bədbəxtdir. Çünki ona iki bədbəxtlik üz vermişdir», Azərbaycan filosofu Əbdül Bəhmənyarın «Elə adamlar axtarın ki, onlarla söhbət yaxşı kitaba bərabər olsun, elə kitablar da axtarın ki, mütaliəsi filosoflarla söhbətə dəysin», Türk atalar sözü

«Pəncəsi, biləyi güclü birini yıxar, biliyi güclü minini» ifadələri xüsusilə maraq doğurur.

Namiq Axundovun bir alim kimi qələmindən çıxan adi bir elmi yazının mənəvi dəyəri onun oxucusu tərəfindən yüksək qiymətləndirilir. Onun çoxsaylı elmi məqalələri, dərslikləri, araşdırma və monoqrafiyaları xalqımız üçün əvəzsiz əhəmiyyət daşıyır.

Qayğıkeşliyi, kimliyindən asılı olmayaraq hamıya yardım əlini uzatmaqdan hədsiz zövq alan, insanlara arxa, dayaq olmağı özünə sənət edən Namiq müəllim uzun illərdir ki, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında «Beynəlxalq münasibətlər» kafedrasının professoru, magistraturanın dekanı kimi təşkilatı işin öhdəsindən layiqincə gəlir. Onun tələbkar valideyin, əvəzolunmaz yaxın qohum - əmi, dayı olduğu məni çox sevindirir. Onların soyadını daşıyan, onun ünvanına daha böyük nüfuz gətirməkdə əlindən gələn imkanlarını sərf

edən qardaşı oğlu Movsümün birgə oxuduğu qrupdakı tələbələrdən daha çox fərqləndiyini nəzərə alaraq, bu gün də bir müəllim kimi onun Azərbaycan dili fənnindən verilən şeir parçalarını yüksək məsuliyyət və tələbkarlıqla öyrəndiyini bir an belə yadımdan çıxarmamışam.

Namiq müəllimin doğum günü ərəfəsində ürəyimdən keçənləri qələmə almağı özümə borc bildim. Namiq müəllimi anadan olmasının 80-ci ildonümü münasibətilə təbrik edir, həyatda onu ürəkdən sevən, şəxsiyyətinə hörmət edən, yaxın dostu sayan və qəlbən özümü onun çoxsaylı pərəstişkarlarından biri olduğumu, onun barəsində nikbin hisslərimi bölüşməyə məmnunluq duyuram, həm də bunu özümə mənəvi borc bilirəm. Ulu tanrıdan uzun illər doğma Azərbaycanımızın beynəlxalq aləmdə deyilən, yürüdülən sülh siyasətinin ideyaçılarından olmağınızı arzulayıram. Məqalədə”Bütövlük” qəzetinin 09-10 №-sində“dünyaya baharda gələnlər” may 2014 , “Qarabağa aparan yol”№ 25(217) 28iyun 2014 cü il tarixli saylarında “Ömrün müdriklik zirvəsində” adlı yazılardan istifadə olunmuşdur. 2019-cu ilin may ayında “Qafqaz- Media” İB-nin təsis etdiyi Dövlətə və dövlətçiliyə sadiq olduğuna, ulu Öndər haqqında yazmış olduğunuz əsərlərinizə, etdiyiniz çıxışlarınıza və müstəqil Azərbaycanın layiqli vətəndaşı olduğunuza görə Dövlət İdarəçilik Akademiyasının Beynəlxalq Münasibətlər kafedrasının professoru Namiq Axundov “Heydər Zirvəsi” diplomu ilə təltif olunmuşdur.

Fidan Abdurəhmanova

AMEA Nizami Gəncəvi adına Ədəbiyyat institutunun aparıcı elmi işçisi, yazıçı-tənqidçi, Azərbaycan Yazıçılar Birliyinin üzvü, Prezident təqaüdçüsü, filologiya üzrə fəlsərə doktoru, dosent

HƏYAT EŞQİ İLƏ YAŞAYAN ALİM

Hər bir insan özünün xarakteri xasiyyəti və həyatda gördüyü işləri ilə fərqlənir, nüfuz qazanır. İnsan həyatı qazandığı uğurlarla dəyərləndirilir. Uzun illər gərgin əməyin, zəhmət və iradənin nəticəsi bir alim ömrünü yaradır. Hər kəsə nəsib olmur bir ömürdə həm şərəfli müəllim, dövlətini dünyaya tanıdan alim və həm də xeyirxah insan adını yaşatmaq.

1940-cı il aprel ayının 7-də vətənimizin dilbər güşəsi Lənkəran şəhərində qulluqçu ailəsində anadan olmuş professor Namiq Axundov yaşadığı illər ərzində elmi yaradıcılığının axtarışlarında olaraq, tariximizin, soykökümüzün illərə, qərinələrə söykənən yaddaşını vərəq-vərəq araşdırmış, açılmamış sirləri, deyilməmiş həqiqətləri üzə çıxarmışdır. 1986-cı ildə Namiq müəllim Moskva İctimai Elmlər Akademiyasının Beynəlxalq əlaqələr şöbəsini bitirir, bir il sonra həmin institutda

namizədlik dissertasiyası müdafiə edərək, 1989-cu ilə kimi MK-da şöbəyə başçılıq edir. Burada işlədiyi müddətdə doğma xalqı və respublikası üçün bir çox vacib təşəbbüslər irəli sürür və bu təşəbbüslər böyük azərbaycanlı Heydər Əliyev tərəfindən dəstəklənir. Bu baxımdan, onun təşəbbüsü ilə 1970-1980-cı illərdə Fransa, Almaniya, İtaliya, Avstriya, İsveçrə, Yaponiya, Seneqal və s. ölkələrdə keçirilən Azərbaycan günləri xüsusi qeyd olunmuşdur.

1985-ci ildə Namiq müəllim Azərbaycan Ali Sovetinin deputatı seçilir və Ali Sovetin sessiyasında xarici işlər üzrə komissiyanın sədri seçilir. 1992-ci ildə Namiq müəllim Azərbaycan Respublikasının Milli Məclisinin Beynəlxalq münasibətlər şöbəsinin müdiri vəzifəsinə təyin olunur. Burada o, 1997-ci ilə kimi işləyir. Namiq müəllim təkcə Azərbaycanda və keçmiş SSRİ miqyasında deyil, bizim ölkənin hüdudlarından çox-çox uzaqlarda da tanınırdı. O, Nyu-Orlean (ABŞ) və Luiziana (ABŞ) ştatının paytaxtı Boten Ruj şəhərinin fəxri vətəndaşı seçilmişdir.

Bundan başqa o, Neapol (İtaliya), Lüdvikshafen və Maynts (Almaniya) şəhərlərinin medalları ilə təltif olunmuşdur. O, bir sıra beynəlxalq təşkilatların verilmiş medal və mükafatlarını almışdır.

Zəngin həyat təcrübəsindən yeri gəldikcə kitablarında, elmi çıxışlarında, dərs dediyi auditoriyalarda gənclərə bölüşür. Professor Akif Bayramovun qeyd etdiyi kimi "Elmi bilik qazanmaq, onu təcrübədən keçirmək, nəticədə ictimai hörmət sahibi olmaq təbii ki, Namiq müəllimə gərgin zəhmət hesabına başa gəlmişdi. Amma saydığımız daha hansı amillər olmalıdır ki, həm el-obanın, həm ictimai mühitin tanıdığı və qəbul etdiyi bir şəxsiyyətə çevriləsən, həm də dövr üçün partiya və hökumətin rəğbətini qazanmaqla üstəlik ali mükafatlara da qazanasan". Hər il Namiq müəllimin doğum gününə şeir həsr edən professor Akif Bayramov arzularını poetik şəkildə ifadəsinə mən də qoşuluram:

İnsan oğlu qəm şərabı içsə də,
Yaşam eşqi hər bir şeyə güc gəlir.
Dayanmadan illər gəlib keçsə də,
Həyat sənə yaşa deyir, gül deyir!

Cavan qalıb, yüz yaşını haqla sən,
Şah ömürdən günlər keçsin kədərsiz.
Həyat ilə əhdi-peyman bağla sən,
Onda görək yüz yaşında səni biz!

Namiq Axundov gülər üzü mehriban davranışı ilə öz mühitinə gözəl abu-hava bəxş edir. Onun 80 yaşının olmasına baxmayaraq, bir gənc kimi həm tələbələrin, həm də müəllimlərin ən yaxın dostudur.

İnsan həyata olan sevgisi ümidi ilə yaşayır. Həyat eşqi hər birimizə mənəvi qüvvə verən mövcud problemlərin öhdəsindən gəlməyə kömək edərək, bütün başlanğıclara vəsilə olur.

Biologiya üzrə elmlər doktoru, professor, Azərbaycan Tibb Universitetinin şöbə müdiri, Beynəlxalq Ekoenergetika Akademiyasının akademiki

Ramiz Atalla oğlu Axundov

AİLƏMİZİN FƏXRİ, NAMİQ

Namiq Axundovun qardası Ramiz Atalla oğlu Axundov 17 iyun 1942-ci ildə Böyük Vətən müharibəsinin ağır illərində çoxuşaqlı azərbaycan ailəsində dünyaya göz açmışdır. Atası, Axundov Atalla Mövsüm oğlu, müxtəlif illərdə arxa cəbhədə çalışmış, Sovet İttifaqının Şimalında Volqa-Baltik kanalını qaldırmış, Aşğabad şəhərində baş vermiş zəlzələ nəticəsində ziyan çəkmiş insanların həyatlarını qurtarmağa yardımçı olmuşdur. Həddən ziyada mobil və xarizmatik şəxsiyyət olmuş, müxtəlif respublikalarda, həmçinin Qazaxstanda, Orta Asiyada vətən tapşırıqlarını yerinə yetirmiş, bu respublikaların insan və sənaye resursları ilə təmin fəaliyyəti ilə məşğul olmuş, dəfələrlə İranda missiya ilə səfərlərdə olmuşdur. Anası Axundova

Xumra Hacı Fərəc qızı 11 uşaq (7-si qız, 4-ü oğlan olmaqla) dünyaya gətirmiş, II dərəcəli, "SSRİ Qəhrəman - anası" ordeni ilə təltif olunmuşdur.

Ramizin uşaqlığı Bakı şəhərinin tarixi mühüm rayonunda – İçərişəhərdə keçmişdir. Ailənin sonbeşiyi olduğundan ailədə, xüsusi ilə qardaşları tərəfindən böyük qayğı ilə əhatə olunmuşdur. Lakin ötən əsrin 40-cı illərinin sonu, 50-ci illərinin əvvəlində cəmiyyətdəki xüsusi vəziyyəti nəzərə alsaq, o, tez böyüyüb böyük həyata atılmışdır. Məktəb illəri çox tez keçdi, artıq 8-ci sinifdə oxuyan Ramiz KMZ zavodunda işləyib işini fəhlə - gənclər məktəbində aldığı təhsillə uzlaşdırmışdı. Layiqli həyat məktəbi keçib, müəyyən təcrübəyə yiyələndikdən sonra 1961-ci ildə Azerbaycan Tibb İnstitunun stamotologiya fakültəsinə daxil olmuşdur. Lakin öz istəyi ilə institutun rektoruna müraciət edərək əczaçılıq fakültəsinə köçürülməyini xahiş etmişdir. Belə ki, o, özünü gələcəkdə tədqiqatçı kimi görür və öz gələcək karyerasını yeni dərman preparatlarının yaradılmasına həsr etmək istəyirdi. İnstitutu 1966-cı ildə bitirdikdən sonra Səhiyyə Nazirliyi Şəhər Baş Apteklər İdarəsinin müxtəlif vəzifələrində, kimyaçı – analitik, farmainspektor, Sumqayıt şəhəri Baş Apteklər İdarəsinin nəzarət – analitik laboratoriyasının müdiri işləmişdir. İstehsalatda 3 il işlədikdən sonra, 1969-cu ildə müsabiqə yolu ilə Azərbaycan Tibb İnstitunun farmakologiya ixtisası üzrə aspiranturanın əyani şöbəsinə daxil olmuşdur. O çox aktual sayılan vərəm əleyhinə preparatların toksiko–farmakoloji tədqiqatı mövzsuna həsr etmişdir. Aspiranturada təhsil aldığı müddətdə dəfələrlə Moskva şəhərində yeni preparatların tədqiqinin Baş Mərkəzində (ВНИХФИ) elmi məzuniyyətlərdə olmuşdur. Orada işləyərək, izoniazid və ftivazid kimi vərəm əleyhinə preparatların farmako-toksikliyinin öyrənilməsinə müəyyən töhfslər vermişdir. Həmin mövzuda 1973-cü ildə namizədlik dissertasiyasını müdafiə etmiş və SSRİ AAK-sı tərəfindən təsdiqlənmişdir.

Aspiranturanı bitirdikdən sonra institut rəhbərliyi tərəfindən Mərkəzi Elmi Tədqiqat Laboratoriyasına göndərilmiş, orada ilk dəfə farmakologiya qrupu, sonra isə toksikologiya və farmokologiya şöbələrini yaratmışdır. Şöbədə onun rəhbərliyi altında özlərini aktiv antihipoksant və antiaqreqant kimi göstərən nikotinamidin bir sıra yeni analoqlarını təklif etmişdir. Aparılmış tədqiqatlar onlarla müəllif

şəhadənaməsi və patentlərlə təsdiqlənmişdir. Tədqiqatın nəticəsi Respublikada tanınmış Ümumittifaq ETM-də ciddi klinik ekspertiza keçmiş, beyin və ürəyin işemiyasının müalicəsində təklif edilmiş yeni nikomorfolin preparatının öyrənilməsi və tətbiqi olmuşdur.

Azərbaycan Respublikasının rəhbərliyinin təklifi ilə 1983-1985-ci illərdə Azərbaycan Tibb İnstitunun bir sıra perspektivli əməkdaşları Sovet İttifaqının müxtəlif şəhərlərində doktoranturaya göndərilmiş, onların sırasında Ramiz Axundov Moskva şəhər SSRİ Tibb Elmlər Akademiyası Farmakologiya ETİ-tu olmaqla doktoranturaya göndərilmişdir. Onun tədqiqatlarının prioriteti nootrop və əkshipoksik maddələrin öyrənilməsinə yönəlmişdir, o zamanlar bu preparatların tədqiqi novator lahiyələr sayılırdı. B_6 vitamininin yeni struktur analoqu sayılan meksidol antihipoksant preparat kimi praktik səhiyyəyə yeridilmişdir. Prepatın yüksək farmakoloji aktivliyi yeni dərman maddələrini öyrənən bir sıra İttifaq mərkəzləri, eyni zamanda SSRİ EA Tibbi–bioloji problem İnstitutu (Kosmik Təbabət İnstitutu) tərəfindən təsdiqlənmişdir. 1988-ci ildə Moskvada doktorluq dissertasiyasını müdafiə edərək SSRİ AAK tərəfindən ona biologiya elmləri doktoru elmi dərəcəsi verilmişdir.

Vətənə döndükdə o, kimyəvi strukturlu, eyni zamanda respublikanın dərman bitkiləri resursları əsasında yeni maddələrin öyrənilməsinə həsr edilmiş tədqiqatlarını davam etdirmişdir.

1990-ci ildə farmakologiya kafedrasına professor vəzifəsinə dəvət edilmişdir. Həmişəki kimi Ramiz Axundov böyük çalışqanlıq və iradə ilə kursun tədrisinə başlamış və qısa müddətdə kollektiv və tələbələrin hörmətini və sevgisini qazanmışdır. Rus və azərbaycan dillərində qruplarda mühazirə oxuyur və praktik məşğələlər aparır. 2001-ci ildə Respublika AAK–sı tərəfindən ona professor elmi adı verilmişdir.

Hal–hazırda onun tədqiqatlarının prioriteti hipoksiya və onunla əlaqəli problemlərdir. Bu konteksdə Milli Aviasiya Akademiyası və AZAL-la birgə ozonun uçuş ekipajına, pilot kabinələrinin ozonlaşdırılması problemi və ekipajın fiziki və əqli işgörmə qabiliyyətlərinin parametrlərinə təsiri öyrənilir.

Profesor R.A. Axundov yüksək erudisiyaya malik neyrofarmakologiya, ürək-damar və ağciyər sistemləri farmakologiyası sahəsində mütəxəssisdir, inisiativdir, yeni dərman preparatlarının, eyni zamanda Azərbaycan florası əsasında maddələrin öyrənilməsi və tətbiqi məsələlərinin gündəmə qoyur və həll edir. O, 25 ixtiranın, 4 milli və 5 xarici patentin, 4 səmərələşdirici təklifin və 5 tədris - metodik vəsaitin müəllifidir. Onun respublika və xarici mətbuatlarında 240-dan cox elmi məqaləsi çapdan çıxıb, o, hər il keçirilən "Dərman və insan", "Ailə sağlamlığı – XXI əsr", "Psixotrop vasitələrə individual həssaslığın bioloji əsasları" və s. kimi xarici konfrans və konqresslərin daimi iştirakçısıdır. Psixorequlyasiya probleminə, xəstə və sağlam orqanizmin hipoksik vəziyyətlərinə həsr edilmiş 2 monoqrafiyanın: "Nootrankvilizatorlar" (1998-ci il) və "Hipoksiya və əkshipoksantlar"ın (2011-ci il) müəllifidir.

Müxtəlif illərdə prof. R.A.Axundov Moskva şəhəri, SSRİ Tibb Elmləri Akademiyasının Prezididiumunda psixotrop maddələrin farmakologiyası Problem komissiyasının üzvü (1989-1992-ci illər), AR Prezidenti yanında Ali Atestasiya Komissiyasının ekspert şurasının üzvü (2006-2010-cu illər), əczaçılıq və farmakologiya üzrə Səhiyyə Nazirliyi TEŞ şöbəsinin sədri (2002-2009-cu illər) olmuşdur. Dissertasiya işi müdafiəsi üzrə AAK-nın Xüsusiləşdirilmiş Elmi Şuranın üzvü, tibbi biologiya, tibbi-profilaktika və əczaçılıq fakültələri üzrə Elmi Şuraların üzvü, ATU-nin nəzəri fənnlər üzrə Problem komissiyasının üzvüdür. Uzun illərdir ki, Beynəlxalq "Biomedicina" (Azərbaycan - Rusiya) jurnalının redaksiya kollegiyasının üzvü, "Azərbaycan Əczaçılıq və farmakoterapiya jurnalı"nın redaksiya şurasının üzvüdür. 2001-ci ildə Beynəlxalq Ekoenergetik Akademiyasının Akademiki seçilmişdir (İsveçrə). Onun rəhbərliyi altında 4 namizədlik dissertasiya işi yekunlaşıb və müdafiə edilib.

Professor R.A.Axundov dəfələrlə yaxın və uzaq xaricdə, respublikamızda möhtəbər elmi konfranslarda çıxışlar etmiş, təbabətə yeniliklər gətirən elmi məqalələr dərc etdirmişdir.

Yüksək təcrübəli tibbi kadrların hazırlanması və tədqiqat sahəsində fəaliyyətinə görə prof. R.A.Axundov Azərbaycan Tibb Universitetinin rektorluğun (2012 ci ildə)

və 2 dəfə, 1982-ci və 2010-cu illərdə AR Səhiyyə Nazirliinin Fəxri Diplomları ilə təltif olunub.

Namik müəllimin qardaşı oğlu Axundov Mövsüm Ramiz oğlu Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının məzunudur. Uzun illər Belçikada yerləşən NATO-nun Mənzil Qərargahında Azərbaycanın könüllü milli tövhəsi kimi çalışıb.

Namik müəllimin qardaşı oğlu Axundov Murad Ramiz oğlu Tibb Universitetinin məzunudur. Stomatologiya sahəsində dünya üzrə məhşur olan "Styleitaliano Dental Community" qrupunun üzvüdür. Gündəlik həkimlik fəaliyyəti ilə bərabər dünya şəhərlərində tibbin son trendləri mövzusunda muhazirələr oxuyur.

Axundovlar ailəsi həmişə böyük fəxrlə və qürur hissi ilə Namik Atalla oğlu Axundovla fəxr etməyi, onunla öyünməyi özlərinin ən böyük maddi və mənəvi dəyəri sayıblar. Ailənin bütün üzvüləri Namik müəllimi anadan olmasının 80 illiyi münasibəti ilə təbrik edir, ona gələcək işlərində yeni –yeni uğurlar arzulayırlar.

ÖMRÜN ANLARI...

Professor Namik Axundov

Anası: Xumra xanım ***Atası: Atalla kişi***

Qardaşı oğlu Mövsüm Axundov NATO-nun baş katibi Jens Stoltenberglə

Qardaşı oğlu – Murad Axundov Dental Revolution Klinikasının stomotoloqudur.

FƏXRİ FƏRMAN

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının
Beynəlxalq münasibətlər və xarici siyasət kafedrasının professoru

AXUNDOV NAMİQ ATALLA OĞLU

səmərəli fəaliyyətinə görə və akademiyanın 15 illik yubileyi münasibətilə

TƏLTİF EDİLİR

M. CABBAROV

Metropolitan Council
City of Baton Rouge
Parish of East Baton Rouge


THE CITY OF NEW ORLEANS
BE IT KNOWN THAT
THE MAYOR OF NEW ORLEANS
HAS CONFERRED THE TITLE OF
INTERNATIONAL
HONORARY CITIZEN
UPON

DİPLOM

"QAFQAZ - MEDİA"
İctimai Birliyi

Yüksək mədəniyyətə malik olan xalq həmişə irəli gedəcək, həmişə yaşayacaq, həmişə inkşaf edəcəkdir.

Heydər Əliyev

Heydər Zirvəsi

96

Dövlətə və dövlətçiliyə sadiq olduğunuza, ulu Öndər haqqında yazmış olduğunuz əsərlərinizə, etdiyiniz çıxışlarınıza və müstəqil Azərbaycanın layiqli vətəndaşı olduğunuza görə

NAMİQ AXUNDOV

Dövlət İdarəçilik Akademiyasının Beynəlxalq Münasibətlər kafedrasının professoru

"Qafqaz-Media" İB-nin təsis etdiyi

"HEYDƏR ZİRVƏSİ"

diplomu ilə təltif olunur

"Qafqaz-Media" İctimai Birliyinin Sedri:
Prezident Təqaüdçüsü, AYB-nın üzvü, şairə
Hacı Azadə - Taleh Abbas Qızı

Bakı - 2019

TƏHSİL
MİLLƏTİN
GƏLƏCƏYİDİR.
HEYDƏR ƏLİYEV

AZƏRBAYCAN RESPUBLİKASI
TƏHSİL NAZİRLİYİ KOLLEGİYASININ

il tarixli №-li qərarı ilə

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının professoru
NAMİQ ATOLLA OĞLU AXUNDOV
yüksək ixtisaslı kadrların hazırlanması sahəsindəki xidmətlərinə görə və Akademiyanın 10 illik yubileyi münasibəti ilə

FƏXRİ FƏRMANLA
TƏLTİF EDİLİR.

NAZİR M.MƏRDANOV

Namiq müəllim toy şənliyində

Namiq müəllim iş otağında professor Akif Bayramov və Ziyəddin Mərərrəmovla söhbət edərkən

DİA-da iclas zamanı

Namiq müəllim kafedra prof.Musa Qulizadə ilə birgə

Kafedrada...

Namiq müəllim Rafiq Hüseynovla söhbət zamanı

Namiq müəllim dostları ilə (Fikrət müəllim və Rafiq Hüseynovla söhbət zamanı)

Namiq müəllim Dillər kafedrasında...


Azərbaycan Milli Elmlər Akademiyasının İnsan Hüquqları İnstitutu
Namiq Axundov
Rövşən Vəlizadə
ANTİKORRUPSİYA
SİYASƏTİ DÖVLƏTİN
DAVAMLI İRADƏSİDİR

NAMİK AXUNDOV, CABİR MƏMMƏDOV
AMERİKA
DÜNYA
DÖVLƏTLƏRİNİN
ƏSAS COĞRAFİ,
SOSİAL VƏ SİYASİ
GÖSTƏRİCİLƏRİ
2-ci кitab

Oqtay Babazadə, Arif Hüseynov, Namiq Axundov, Etibar Babayev, Hacıəmi Atakişiyev.
Bakı Xətai Sənət Mərkəzi. Sərginin açılışında. Bakı, 2012

Rüstəm Məmmədovla Pekində

Azərbaycanın xarici ölkələrlə Dostluq Cəmiyyəti. İclasa Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin katibi Ramiz Mehdiyev sədrlik edir. 1986 il

Azərbaycan SSRR-i Ali Şurasının iclasında

Milli Məclis iclasının fasiləsində

Həsən Həsənovun iştirakı ilə bir ziyafət

Namiq Axundov Azərbaycan SSR-i Ali Sovetinin deputatları arasında (1985)

Azərbaycanın xarici ölkələrlə Dostluq Cəmiyyətinin görüşü (Namiq Axundovun solunda, Xalq yazıçısı Süleyman Rüstəm, sağda, Xalq şairi Nəbi Xəzri)

Azərbaycanın xarici ölkələrlə Dostluq Cəmiyyətinin görüşünü Xalq Şairi Nəbi Xəzri aparır (fonda Azərbaycan Lenin komsomolunun birinci katibi Elmira Kafarova)

Namiq Axundovun 60 illik yubileyi mərasimi (mərkəzdə: Azərbaycanın Xalq Artisti Mirzə Babayev, sağda, Bakı Şurası sədrinin müavini Əzim Məsimov)

Namik Axundov amerikalı milliarder David Rokfeller ilə söhbət edir

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin Xarici əlaqələr şöbəsinin rəis müavini Namiq Axundov Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyevdən "Dostluq ordeni"-ni alarkən (1975-ci il)

Hava limanında xarici qonaqların qarşılanması (arxa fonda Azərbaycan SSR Ali Şurasının sədri Elmira Kafarova)

Xarici qonaqlar ilə görüşdə (solda: Milli Məclisin Əhalinin Sosial Müdafiəsi Komitəsinin sədri Hadi Rəcəbli)

Azərbaycan Respublikasının Prezidenti H.Əliyev Bundestaqın (Almaniya) deputatlarını qəbul edir. Ön planda Ali Sovetinin xarici Əlaqələr şöbəsinin rəisi N.A. Axundov Arxada, Prezidentin məsləhətçisi Vəfa Quluzadə (17.12.1993-cü il)

Ekspozisiya təqdimatı çərçivəsində Namiq Axundov Azərbaycanın Xalq Rəssamı Tahir Salahovla.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin I katibi Kamran Bağırovun qəbulunda Kanadadan gələn xarici qonaqlar (1989)

Hindistandakı Azərbaycan nümayəndə heyəti (arxa planda xalq artisti Elmira Rəhimova)

Scene

11-A

Tuesday, September 8, 1987

ging gaps with friendship

PHOTO BY PAT SULLIVAN

Namik Akhundov, a Communist Party leader in Azerbaijan, says he wants to further friendly U.S, Soviet ties.

"By talking with the common Americans, we hope politically to solve some very complex questions, like extinction of nuclear weapons, and to establish a relationship of confidence."

— Namik Akhundov

ing through an American translator. He suggested trade fairs or expositions and

country's leading producer of grapes.

The delegation was planning to tour a

But already the Soviets have learned it

Bir Amerika qəzetindən parça 1987-ci il.



THE CITY OF NEW ORLEANS

BE IT KNOWN THAT
THE MAYOR OF NEW ORLEANS
HAS CONFERRED THE TITLE OF
INTERNATIONAL
HONORARY CITIZEN
UPON

Mr. Namik Akhundov

Mayor

Attested to, this 11th day of SEPT, 1987

Namik Axundov Yeni Orleanın (ABŞ) fəxri vətəndaşı

.



State of Louisiana

OFFICE OF THE

Metropolitan Council
City of Baton Rouge
Parish of East Baton Rouge

In the name and by the authority vested in me Know Ye, *that I have nominated, constituted and appointed, and by these presents do nominate, constitute and appoint,*

Namik Akhundov

Honorary Council Member

OF THE CITY OF BATON ROUGE, PARISH OF EAST BATON ROUGE

He is, therefore, carefully and diligently to discharge the duties of his office by doing and performing all manner of things thereunto belonging, and to observe and follow such orders and directions from time to time, as he shall receive from me according to the laws governing the Office of the Metropolitan Council, City of Baton Rouge, Parish of East Baton Rouge.

This Commission is to continue in force during the term of the Council Member, whose name is affixed hereto.

In Testimony Whereof, *I have hereunto set my hand as my official signature, and caused to be affixed the Seal of the City of Baton Rouge, Parish of East Baton Rouge, this* [illegible] *day of* [illegible] *in the year of our Lord nineteen hundred and* eighty-seven.

Larry S. Bankston

COUNCIL MEMBER
CITY OF BATON ROUGE
PARISH OF EAST BATON ROUGE

Namik Axundov Luiziyananın (ABŞ) fəxri vətəndaşı

Namiq Axundov Hindistan nümayəndə heyəti arasında

(Bakı, 1977)

Namiq Axundovun rəhbərlik etdiyi KVN komandasının üzvləri. Sağ üçüncüsü Yuliy Gusman (1969)

Azərbaycanın nümayəndə heyəti Hindistanda (sağda, Hindistanın baş naziri İndira Gandi (1977)

Сталин адына нефтајырма заводунун үчүнҹү сехиндәки 306 нөмрәли гурғунун коллективи партијанын XXII гурултајына һәдијјә олараг пландан әлавә 15 гатардан чох ачыг рәнкли нефт мәһсуллары һазырламышдыр. ШӘКИЛДӘ (сағдан): гурғу рәиси З. ИСЛАМОВА, оператор көмәкчиси Н. АХУНДОВ вә оператор С. БАБАЈЕВ. Фото А. Орловундур.

12 mart 1959-cu il tarixli "Vışka" qəzetindən parça

Azərbaycan SSR Kommunist Partiyası Mərkəzi Komitəsinin Xarici əlaqələr şöbəsinin işçiləri (1975)

Fasilə zamanı görüşlər. Soldan sağa: prof. Mamed Sadıx Abdullayev, KQB zabiti Maqsud Məmmədov, Namiq Axundov və akademik Mamed Cavad oğlu Cavad-zadə (1983)

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Elmi Şurasının üzvləri (2013)

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Elmi Şurasının iclasında (2014)

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasınında tədbir (2015)

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçelik Akademiyasında təntənəli şam yeməyində.(2017)

Namiq Axundovun başçılıq etdiyi Sovet nümayəndə heyətinin Pəhləvi limanında (İran) görüşü. Ön sırada SSRİ-nin İrandakı nümayəndəsi Cabir Məmmədovdur 1977.

Su Sonası şadlıq sarayı. 496-30-45

40
Gülüstan

Film rejissoru Eldar Quliyev ilə birlikdə

Namiq Axundovun 60 illik yubileyində (2000)

Çin Xalq Respublikasına səfər (1998)

Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə ilə.

ДИПЛОМ
ДОКТОРА НАУК

ДТ № 013737

Москва

Решением
Высшей аттестационной комиссии
при Совете Министров СССР
от 10 апреля 1992 г. (протокол № 15д/41)
Ахундову Намику Аталла оглы
присуждена ученая степень
ДОКТОРА
исторических наук

Председатель
Высшей аттестационной комиссии

Главный ученый секретарь
Высшей аттестационной комиссии

SON SÖZ ƏVƏZI

ÖMRÜN YAŞANMIŞ 80 İLLİK GÜNLƏRİ

Aqillərin, məşhur filosofların, müdriklərin söylədiyi kimi ömür Tanrının insanlara bəxş etdiyi ən böyük, ikinci əvəzedicisi, tayı-bərabəri olmayan müqəddəs, qiymətsiz ülvi bir ərməğandır. Ömür Tanrının insana qismət etdiyi ən dəyərli paydır, onu sevərək, qoruyaraq, əzizləyərək yaşamaq hər bir Vətən övladına lazımdır. Hər bir insan oğlu bu yaşam üçün lazım gəlsə vuruşmalıdır, döyüşməlidir, mübarizə aparmalıdır, çətinliklərə dözə-dözə olanlara sinə gərərməklə ağrıya-acıya dözməlidir. Çünki, ömür tək bircə dəfə insana verilir. Ömürlə bağlı bu sadə fəlsəfəni hamı eyni dərəcədə anlaya bilmir, duya bilmir.?! Məncə yox! 80 il də, 100 il də ötə bilər, amma ömür boş –boşuna yaşanıbsa, boşdursa, ona ömür demək olarmı? Deyirlər ömür ötən illərlə yox, yaşanan günlərlə ölçülür. Gəlin fikirləşək, görək ömrümüzə yazılaraq neçə gün yaşamışıq? Ömrün əvvəllərində, heç olmasa yarısında bunun fərqinə varsaq, sonra arxaya təəsüflə boylanmarıq biz.

Amma elə insanlar da var ki, yaşanan günləri ötən illərini yolda qoyur. Bax əsil xoşbəxtlik budur. Qibtəyə , həsədə dəyər deyilmi?...

Əziz oxucu, əlinizdəki kitabi vərəqlədikcə sizin də qibtə edəcəyinizə əminəm. Görkəmli ictimai xadim, alim, pedaqoq, müəllim, hami-tərbiyəçi, ən ümdəsi gözəl insan Namiq Atalla oğlu Axundovun 80 illik ömrünə işıq salan bu kitab, həm də ruhunuzu oxşayacaq, əhvali-ruhiyyənizi yüksəldəcək, çünki, bu insan bütün əzab-əziyyətlərə, çətinliklərə baxmayaraq ruhu həmişə yüksək olub, səmalarda, fəzalarda cövlan edib.

Ruh nədir?! Ruh insanın içindəki canlı "mən"dir, insanın ürəyini döyündürən, beynini çalışdıran, əzalarını var edən ilahi varlıqdır. Ruhun varsa yaşayırsan, yoxdursa canlı ölüsən. Zəif, iradəsiz insanlar ruhunu tez itirir, bəzən yenidən tapa bilər, bəzən də heç tapa da bilmir. Namiq müəllim isə həmişə ruhlu, həm də yüksək

ruhlu insan olub. Dostlarının, tanışlarının, sevənlərinin onun haqqında yazdıqları, söylədikləri bunu dönə-dönə təsdiqləyir. Namiq müəllim özü yüksək ruhlu insan olduğundan ünsiyyətdə olduğu insanlara da ruh verib, onlarda həyata sonsuz maraq və tükənməz həvəs yaradıb. Namiq müəllimin ruhu mərkəzi idarəetmə orqanlarının aparat işlərində, partiya, sovet işində formalaşıb. Bu kitab Namiq müəllimin, həmçinin, xarici ölkələrə səfər zamanı əldə etdiyi nailiyyətlərdə zənginləşib. Bu kitab xeyirxah əməllərdəki, elmi tədqiqatlarda gəldiyi qənaətlərdə formalaşıb. Onun xarakterini, həyatını, yaradıcılığını əks etdirən materiallar toplusudur. Bu kitabı oxucayacağına əminliklə inanıram. Hər imzanın sahibi onu gördüyü, tanıdığı duyduğu kimi yazıb. Bütün yazılanları, deyilənləri ümumiləşdirməkdə ağlımıza dilimizə bircə Gözəl İnsan kəlməsi gəlir.

Mən bu insanı müşahidə edərkən bir məziyyətinə həmişə heyrət etmişəm. Bəzən ondan heç nə xahiş etmək lazım gəlmir. Onun hər hansı bir problemi bilməsi kifayətdir. O, problemi adamın özündən xəbərsiz həll edir.

Ziyəddin Məhərrəmov

Filologiya üzrə elmlrə doktoru

MÜNDƏRİCAT

1. Müəllifdən..3
2. Uşaqlıq və gənclik illəri..5
3. Tələbəlikdən dlimliyə gedən yol...6
4. Görkəmli alim, istedadlı idarəedici (Urxan Ələkbərov) 9
5. "Şərəfli həyat yolu (Musa Quluzadə)..12
6. Böyük alim. Peşəkar dövlət qulluqçusu və xeyirxah insan (Əli Nuruyev)..17
7. Gənclik illərinin dostu (Akif Bayram)...20
8. Qayğıkeş insan (Yusif Ağayev)..24
9. Kökəbağlılığı yaşadan insan (Aydın Məmmədov).......................................26
10. Dövlət xadimi və bacarıqlı pedaqoq (Fuad Məmmədov)............................28
11. Tanınmış ictimai xadim (Fuad Şammədov)...31
12. Xeyirxahlıq missiyasını daşıyan insan (Sakit Əliyev) 34
13. Təvazökar insan (Adil Musayev)..36
14. O, komsomolun yetişdirdiyi kadırlardandır (Sevil Məmmədova)................39
15. Görkəmli alim (Rüfət Quliyev)..41
16. O, dünyaya baharda gəlmşdi (Ziyəddin Məhərrəmov)..................................44
17. Həyat eşqi ilə yaşayan alim (Fidan Abdurəhmanov).....................................50
18. Ailəmizin fəxri Namiq (Ramiz Atalla oğlu Axundov)................................ 53
19. Ömrün anları (şəkillər)...58
20. Son söz əvəzi. Mənalı ömrün yaşanmış 80 ilik günləri..................................98